

## 2023-cü il “Heydər Əliyev İli” elan edildi - Sərəncam

*Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilib. ”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.*

Səh.2



## Hüseynqulu Bağırovun bu ölkələrdə çoxsaylı şirkətləri var imiş...

# UNİKAL

№36 (2121) 30 sentyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



Səh.9

## Ermənistan dalana dirənib:

### Ya sülh sazişi imzalayacaq, ya da məhv olacaq...

## Bir zamanların ”ən fağır nazirinin” Avropadakı ailə biznesi ”göz qamaşdırır”

*Bu günlərdə yerli media, bir qayda olaraq, sabiq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun və oğlu Lətif Bağırovun Azərbaycandakı müxtəlif biznes obyektlərindən, şirkətlərindən yazır. Bu sıraya hotellərin, restoranların, istirahət mərkəzlərinin daxil olduğu deyilir. Lakin mənbələr keçmiş ekologiya və təbii sərvətlər nazirinin ailə biznesinin əsasən ölkədən kənarda formalaşdığı fikrində həmrəydilər. Söhbət xüsusilə Avropanın aparıcı ölkələrindəki şirkətlərdən gedir. Məsələn, keçən il eks-nazirin oğlu L.Bağırovun 9 il əvvəl Böyük Britaniyanın paytaxtı Londonda təsis etdiyi “Nordfields Properties Limited” adlı şirkətin öz fəaliyyətini dondurduğu barədə məlumat yayılıb. Oğul Bağırov həmin şirkəti 33 yaşında ikən yaradıbmış.*

Səh.8

## “Ermənilər kənardan qızışdıranlar var”



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ”Unikal”a müsahibə verib. O, Ermənistanın sərhəddə törətdiyi təxribatlardan, Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına kimlərin mane olmasından və s.*

Səh.4

## Çingiz Əsədullayev müəmması...



*Sentyabrın 28-də ”Bakı Hərrac Mərkəzi” MMC-də ləğv prosesində olan ”AGBank” ASC-nin daşınmaz əmlakının satışı üzrə açıq hərrac keçirilib. Bankın ləğvedicisi - Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun (ADIF) daha əvvəl yaydığı məlumata görə, söhbət Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi...*

Səh.10

## Media Reyestri mətbuata və jurnalistlərə nə vəd edir?



*Prezident İlham Əliyev bu günlərdə imzaladığı Fərmanla “Media Reyestrinin aparılması Qaydaları”nı təsdiqləyib. Fərmana əsasən, Medianın İnkişafı Agentliyinə (MEDİA) Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb.*

Səh.11

# Oksana ilə Şəhriyar arasında nə baş verir? - Açıqlama



***Aparıcı-aktyor Şəhriyar Əbilov keçmiş xanımı Oksana Rəsulovanı instaqramda izləmədən çıxarmasına münasibət bildirib.***

"Unikal" xəbər verir ki, olay-a açıqlama verən Əbilov sosial şəbəkəni əsas göstərici hesab etmədiyini bildirib: "Çox saygı ilə yanaşıram. Amma bu sualı cavablandırmaq istəmirəm. Hər şey yaxşıdır. Sosial şəbəkədir də... Real həyatda salam-sağolumuz var".

Qeyd edək ki, axşam.az saytı Oksana ilə Şəhriyarın bir-birini "unfollow" etməsi barədə xəbər yaymışdı.



# Aynişan 50 saat ac qaldığını açıqladı: "Bu, öz xoşumla baş vermədi"

***Əməkdar artist Aybəniz Haşımovanın bloger qızı Aynişan Quliyeva açıqlaması ilə diqqət çəkib.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, bloger sosial şəbəkə hesabında yayımladığı videoaçıqlamada 50 saat ac qaldığını söyləyib.

"Bir çox insan 50 saat ac qaldığıma inanmayıb. Təbii ki, bu, öz xoşumla baş verməyib. Mənim 50 saat ac qalmağım mümkünsüz idi.

Keçən il Kiyevdə olduğum zaman qida ilə bağlı müalicə aldım. Orada məni 50 saat ac saxlamışdırlar. İlk həftə 50 saat ac qalanda gözlərim qaraldı. Hər kəsdən narazı olduğumu bildirirdim. İkinci həftə isə artıq orqanizmim buna alışdığı üçün meşədə qaçırdım", - deyə Aynişan bildirib.

# "Ərə gələndən sonra tələbləri artmağa başlayır" - Nadir Qafarzadə

***"Gəlinimdən danışanda məni qınayırlar. Amma kimdə nə var, ondan danışmalıdır. Sevgilim, "çuvixam" yoxdur ki, danışım... Gəlinim yox, mənim qızımdır. 30 il qız övladı arzulamışam. Allah mənə bir dəfə qız övladı verdi, ancaq tələf oldu. Elə bil Allah sonra onu yetirdi bizə: qəlbi gözəldir, şən əhval-ruhiyyədədir. Müasirlik olanda da, onu çərçivədə etməlisən. Bir neçə dil bilir, oğlumu sevir. Bunlar məni o qədər sevindirir. Qadın gəlib ailə olmaq, həyat yoldaşı ilə bir ömürboyu yaşamaq üçün".***



Bu sözləri Axşam.az-a açıqlamasında müğənni Nadir Qafarzadə deyib. Gəlinindən danışan sənətçi boşanmaların sayının artmasını tənqid edib: "Bilmirəm, bu, insanların səbirsizliyi, dözümsüzlüyü, yoxsa zəifliyidir. Zəif insanlar tez qərar verir. Bir iki-üç il yaşa, bir-birinizə öyrəşin, həyatın çətinliyini görün. İki aydan sonra dururlar ki, ayrılırıq. Səbəb də odur ki, çay yaxşı olmadı. Başqa səbəblər də var, amma çoxu boş səbəbdəndir. Bəzəndə ailə qurur imkansız biri ilə, sonra tələblər artır. Sən sevəndə bilirdin ki, milyonçuya yox, ayda 500 manat maaş alana ərə gedirsən. Niyə ərə gələndən sonra başlayırlar tələbləri artmağa? Oliqarxa ərə getmisən? Bir də valideynlərin müdaxiləsi ayrılığa gətirir. Mən oğlumun ailəsinə qarışmıram, ancaq kənardan dəstək oluram. İndikilər görüşürlər də, kafedə otururlar da, instaqramda selfi də paylaşırlar. Amma evlənən kimi ayrılırlar. Bir də zəhləm gedir deyəndə ki, ayrılsaq da, dostuq. Dost qalan idizsiniz, boşanmazdınız".

Rusiyada müğənni kimi fəaliyyət göstərən oğlundan danışan qafarzadə bildirib ki, oradakı hərbi vəziyyətlə bağlı Əziz Bakıya qayıdıb: "Anası gətirdi Bakıya. İndi işləyir. Şou-biznes sahəsində çalışmır. Oğlum Rusiyada müğənnilik edirdi. Orada böyük pullar lazımdır. O qazana girmək üçün xərcləməlisən. Mənim gücüm yoxdur. Gərək hər şeyimi satım, çadır qurum yatım içində. İllərlə qazandığımı satıb prodüser mərkəzinə verim?".



# "Sizin rejiminizin Allah bəlasını verəcək" - Günel Zeynalova

***Müğənni Günel Zeynalova İranda baş verən etirazlarla bağlı paylaşım edib.***

Aksiyalardan video yayımlayan sənətçi bunları yazıb: "Bəsdirin, artıq günahsız insanları rahat buraxın. Sizin rejiminizin onsuz Allah bəlasını verəcək".

Xatırladaq ki, İranda sentyabrın 16-sı 22 yaşlı Məhsa Əmininin əxlaq polisi tərəfindən zorakılığa məruz qalması və bir neçə saatdan sonra xəstəxanada vəfat etməsi İranda ictimai-siyasi vəziyyəti gərginləşdirib. Həmin gündən etibarən ölkənin bir çox şəhərində etiraz aksiyaları keçirilir.



# Tünzalə estetik etdirdi

***Xalq artisti Tünzalə Ağayeva üzünə estetik toxunuşlar etdirib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, sənətçi bu barədə sosial şəbəkə hesabında məlumat paylaşıb.

İfaçı konturlama proseduru etdirdiyini və məmnun qaldığını vurğulayıb.



# Əri Fatimənin şəklini döymə etdirdi

***İnfluenser Fatimə Əhmədova (UlviFatime) növbəti paylaşımı ilə diqqətləri üzərinə çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, bloger həyat yoldaşı Ülvinin onun şəklini kürəyinə döymə etdirdiyi fotoları paylaşıb.

"Hər dəfə deyirəm, bundan artıq məni təəccübləndirə bilməz... Dünən dedi ki, çox vacib işim var. Sən demə, döymə etdirməyə gedib. Hekayəmizə uyğun portret hazırlayıb, çox kövrəldim", - deyə, Fatimə qeyd edib.



# MDB Dövlət Başçıları Şurasının iclası keçiriləcək

***Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclası oktyabrın 14-də Qazaxıstanın Astana şəhərində keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Qeyd olunub ki, oktyabrın 13-də Asiyada Qarşılıqlı Əlaqə və Etimad mövzusunda sammit, növbəti gün isə "Mərkəzi Asiya-Rusiya" sammiti baş tutacaq.

# Azərbaycandan Ermənistana cavab

***28 sentyabr 2022-ci il tarixində Ermənistan Xarici İşlər Nazirliyi guya Azərbaycan tərəfinin atəşkəs rejimini pozması ilə bağlı əsassız bəyanatı, habelə bu ölkənin baş nazirinin sosial şəbəkə hesabı üzərindən Azərbaycana qarşı saxta ittihamları açıq şəkildə Ermənistanın bölgədəki vəziyyəti gərginləşdirmək məqsədi güddüyünü göstərir.***




"Unikal" xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat Xidməti İdarəsi bildirib.

XİN-in şərhində deyilir: "Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən daha öncədən məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 28-i saat 18:00 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətindəki bölmələrini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub və nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb. Beləliklə də Ermənistan tərəfinin atəşkəsi pozaraq əl atdığı təxribata cavab olaraq Azərbaycan Ordusu adekvat tədbirlər görüb.

Ermənistan tərəfinin artıq "ənənə" xarakteri almış təxribatlarının növbəti yüksək səviyyəli görüş ərəfəsində məqsədli şəkildə baş verməsi şübhə doğurmur. Xatırladırıq ki, Ermənistan, bu ilin 13 sentyabr tarixində saat 9.00 da əldə edilmiş atəşkəsi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Zirvə görüşü ərəfəsində pozaraq, qəsdən gərginliyi artırmaqla təxribatlarını 36 saat davam etdirdi. İndi də iki dövlət arasında yenidən təmasların baş tutduğu, növbəti görüşlərin planlaşdırıldığı bir vaxtda və bölgəyə beynəlxalq vasitəçilərin səfəri ərəfəsində Ermənistan eyni oyunu oynayır, insanları öz cılız siyasətinin qurbanına çevirir.

Aydındır ki bu, Ermənistanın danışıqlar prosesini pozmaq üçün növbəti bəhanəsidir.

Ermənistan rəhbərliyi bölgədəki vəziyyəti gərginləşdirməməli, danışıqlar prosesinə qeyd-şərtlər irəli sürməməli, beynəlxalq ictimaiyyəti ittiham etmək təcrübəsini dayandırmalı və danışıqlar masasında əyləşməlidir.

Ermənistandan fərqli olaraq, sülh gündəliyinin təşəbbüskarı olan, işğaldan azad edilmiş ərazilərimizdə iri miqyaslı bərpa quruculuq və nəqliyyat kommunikasiyalarının açılması üçün sürətlə iş aparan Azərbaycan bölgədə gərginliyin yaranmasında maraqlı deyil. Lakin ölkəmizə qarşı olan hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq".

# Hüseynqulu Bağırovun bu ölkələrdə çoxsaylı şirkətləri var imiş...

## Bir zamanların "ən fağır nazirinin" Avropadakı ailə biznesi "göz qamaşdırır"

***Bu günlərdə yerli media, bir qayda olaraq, sabiq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun və oğlu Lətif Bağırovun Azərbaycandakı müxtəlif biznes obyektlərindən, şirkətlərindən yazır. Bu sıraya hotellərin, restoranların, istirahət mərkəzlərinin daxil olduğu deyilir. Lakin mənbələr keçmiş ekologiya və təbii sərvətlər nazirinin ailə biznesinin əsasən ölkədən kənarda formalaşdığı fikrində həmrəydilər. Söhbət xüsusilə Avropanın aparıcı ölkələrindəki şirkətlərdən gedir. Məsələn, keçən il eks-nazirin oğlu L.Bağırovun 9 il əvvəl Böyük Britaniyanın paytaxtı Londonda təsis etdiyi "Nordfields Properties Limited" adlı şirkətin öz fəaliyyətini dondurduğu barədə məlumat yayılıb. Oğul Bağırov həmin şirkəti 33 yaşında ikən yaradıbmış.***



2015-2017-ci illərdə şirkətə Hüseynqulu Bağırovun 1989-cu il təvəllüdlü qızı Sevinc Bağırova da rəhbərlik edib.

Onu da bildirək ki, keçmiş nazirin övladlarının xarici ölkələrdəki şirkətlərinin konkret sayı bəlli deyil. Belə ki, Lətif Bağırovla Sevinc Bağırovanın aşağıdakı şirkətlərə rəhbərlik etdiyi barədə məlumatlar var: "Nordfıelds Management Lımıted" - Böyük Britaniya; "Nordfıelds Hospıtalıtıes Ltd" - Böyük Britaniya; "Nordfıelds Investment Lımıted" - Böyük Britaniya; "Stamına Investments Lımıted" - Böyük Britaniya; "Romerstal Investment Lımıted" - Böyük Britaniya; "Lloyd Mckenzıe Lımıted" - Böyük Britaniya; "Wu Traınıng Centre Uk Ltd" - Böyük Britaniya; "Turnkey Solutions Lımıted" - Böyük Britaniya; "Derean Lımıted" - Böyük Britaniya; "Reander Lımıted" - Böyük Britaniya; "STS Turizm ve Otelcilik İnşaat Limited" - Türkiyə; "Lıegenschaftsverwertungs GmbH" - Avstriya; "Wu Immo Center GmbH" - Almaniya; "Isla Investment, S.R.O." - Çexiya; "Welgear Investments Lımıted" - Kipr...

Yeri gəlmişkən, Bağırovların adları çəkilən ölkələrdə kifayət qədər böyük məbləğlərlə ifadə edilən mülklər aldığına dair iddialar da mövcuddur.

Xatırladaq ki, H.Bağırov 2019-cu ildə mediaya açıqlamasında ailə biznesinin olduğunu inkar edib. Ondan bir il öncə isə H.Bağırovun təsisçisi olduğu Qərbi Kaspi Universiteti açıqlama yayaraq eks-nazirin oğlunun və qızının xaricdə şirkətlər yaratdığına dair iddiaları yalanlamışdı. Sitat: "Adları çəkilən şirkətlərin, mülklərin heç birinin sahibi nə Hüseynqulu Bağırov, nə də oğludur. Bu gün də Lətif Bağırov nə Almaniyada, nə də İngiltərədə hər hansı mülkün sahibi deyil. İngiltərədə şirkətlərin qurulması üçün cəhdlər edilib, ancaq bu cəhdlər yekunda uğursuzluqla nəticələnib ya da şirkət qeydiyyatdan keçirilib, ancaq fəaliyyət olmayıb. Yazıda göstərilən məlumatlar həqiqəti əks etdirmir. Məlumat üçün deyək ki, Lətif Bağırov bu gün Türkiyədə müəyyən kiçik biznes layihələr həyata keçirməyə cəhd edir. Bu da onun təbii haqqıdır. Əgər dövlət qulluqçusu olsaydı, hansısa vəzifə tutsaydı, kimlərsə bunu Hüseynqulu Bağırovun təmin etdiyini deyəcəkdi. Və ya böyük biznesə sahib olsaydı, yəqin ki, yenə anoloji mövqe təkrarlanacaqdı. Atasının nazir və ya keçmiş nazir olmasına görə, o, hər hansı bir fəaliyyətlə, o cümlədən bizneslə məşğul ola bilməzdimi?! Xaricdə, hansısa əlavə təsir imkanlarının mümkün olmadığı bir ölkədə gənc biznesmen həmvətənimizin kiçik biznes cəhdlərinə qarşı bu cür qısqanclıq, təəccüb və təəssüf doğurur".

Lakin sonrakı illərdə Britaniya, Almaniya kimi ölkələrin rəsmi vergi və maliyyə sənədlərinə istinadən yayılan məlumatlar həm eks-nazirin, həm də təsisçisi olduğu universitetin təkzibini təkzib edib. Yəni, onun övladlarının xaricdə çoxsaylı şirkətlər yaratdığını təsdiqləyib. Maraqlıdır ki, Hüseynqulu müəllim son iki ildə ailə şirkətləri barədə iddialara reaksiya verməməyi üstün tutub.

Qeyd edək ki, Bağırov vəzifədə olarkən ölkənin "ən fağır naziri" kimi ad çıxarmışdı. Belə fikir formalaşmışdı ki, o, biznes işlərindən uzaqdır, böyük sərvətə malik deyil. Lakin postunu itirdikdən sonra eks-nazirlə bağlı bu təəssürat dağıldı...

***Sənan Mirzə***

# Ermənistan dalana diranib: Ya sülh sazişi imzalayacaq, ya da məhv olacaq...

## Elmar Məmmədyarov: "Əgər onlar daha çox itki vermək istəmirlərsə, tez bir zamanda danışıqlara başlamalıdırlar"

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən daha öncədən məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 28-i saat 18:00 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətindəki bölmələrini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub və nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb. Beləliklə də Ermənistan tərəfinin atəşkəsi pozaraq əl atdığı təxribata cavab olaraq Azərbaycan Ordusu adekvat tədbirlər görüb.***

Ermənistan tərəfinin artıq "ənənə" xarakteri almış təxribatlarının növbəti yüksək səviyyəli görüş ərəfəsində məqsədli şəkildə baş verməsi şübhə doğurmur. Xatırladırıq ki, Ermənistan, bu ilin 13 sentyabr tarixində saat 9.00 da əldə edilmiş atəşkəsi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Zirvə görüşü ərəfəsində pozaraq, qəsdən gərginliyi artırmaqla təxribatlarını 36 saat davam etdirdi. İndi də həm, iki dövlət arasında yenidən təmasların baş tutduğu, növbəti görüşlərin planlaşdırıldığı bir vaxtda və bölgəyə beynəlxalq vasitəçilərin səfəri ərəfəsində Ermənistan eyni oyunu oynayır, insanları öz cılız siyasətinin qurbanına çevirir.

Rəsmi Bakı Hesab edir ki, bu, Ermənistanın danışıqlar prosesini pozmaq üçün növbəti bəhanəsidir. Azəbaycan XİN bəyan edib ki, Ermənistan rəhbərliyi bölgədəki vəziyyəti gərginləşdirməməli, danışıqlar prosesinə qeyd-şərtlər irəli sürməməli, beynəlxalq ictimaiyyəti ittiham etmək təcrübəsini dayandırmalı və danışıqlar masasında əyləşməlidir.

"Mən dəfələrlə demişəm ki, əgər sülh müqaviləsi bağlanmasa, Ermənistan tərəfindən törədilən təxribatlar davam edəcək". Bunu "Unikal"a açıqlamasında sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib. "Əlbəttə ki, Azərbaycan da bu təxribatların qarşısında dinc dayanmayacaq və öz cavabını verəcək. Erməni təxribatlarının qarşısının tam şəkildə alınmasının yeganə yolu sülh müqaviləsinin bağlanması və sərhəddə delimitasiya-demarkasiya işlərinin aparılmasıdır. Əgər bunları etməsək, düşmən təxribatları davam edəcək" - deyə sabiq nazir əlavə edib.

"Ermənistan tərəfindən sülh müqaviləsinin ilkin variantı artıq hazırlanıb. Sülh müqaviləsinə dair prosesin tempi daha da sürətlənib". Bu barədə Ermənistanın "Hpararak" nəşri yazıb. Məlumata görə, Nikol Paşinyan sülh sazişinin ilkin layihə variantı ilə oktyabrın 6-da Praqada keçirilməsi nəzərdə tutulan Avropa İttifaqının (Aİ) qeyri-rəsmi sammitinə qatılacaq. Bildirilir ki, sentyabrın 27-si Ağ Evdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Cek Sallivanın təşəbbüsü ilə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında keçirilən görüşdə sözügedən sazişin ilkin variantları müzakirə olunub. Əvvəlcədən məlumat verilmişdi ki, Praqada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Nikol Paşinyanın görüşü baş tuta bilər.

Sabiq nazir onu da bildirib ki, Ermənistanın Baş naziri Nikol Paşinyan da Avropa İttifaqının qeyri-rəsmi sammitində iştirak etmək üçün oktyabrın 6-sı Praqaya səfər edəcək. O, həmin sammitə Azərbaycan və Ermənistan arasında sülh sazişinin ilkin variantı ilə qatılacaq: "Bu müəyyən qədər müsbət haldır. Çünki biz sülh danışıqlarına nə qədər tez başlasaq, o qədər də yaxşı olacaq. Beynəlxalq ictimaiyyət də bunu tələb edir ki, tezliklə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar aparılsın. Delimitasiya və demarkasiya məsələsi də olduqca önəmlidir. Əgər sərhəd müəyyənləşdirilməsə, deməli, həmin sərhəd qanuni deyil. Hər bir halda biz praktiki işlərə başlamalıyıq. Mən vaxtilə deyirdim ki, bizə elə-belə yox, əsl danışıqlar lazımdır. Belə görüşlərlə heç nə mümkün olmayacaq. Sülh sazişinin imzalanması Ermənistanın da milli maraqlarına uyğundur. Əgər onlar daha çox itki vermək istəmirlərsə, tez bir zamanda danışıqlara başlamalıdırlar", - deyə o bildirib.

Politoloq Məhəmməd Əsədullazadə isə sülh müqaviləsi ilə bağlı danışıqların fərqli bir frazasının da başlandığını bildirib. O qeyd edib ki, ABŞ, Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyasına başlayıb. Onun qənaətincə, ABŞ prosesi sülh müqaviləsinin imzalanması ilə sonlandırmağa çalışır: "ABŞ Dövlət departamenti Prezidentin köməkçisi Hikmət Hacıyevlə Ermənistan Təhlükəsizlik şurasının katibi A. Qriqoryanla görüşünü təşkil edib. Bundan əvvəl, xarici işlər nazirlərinin görüşünü təşkil etmişdir. Görünür, Bakı və Yerevan arasında Brüssel formatı və Moskvanın vasitəçiliyi arxa plana keçir. Belə bir diplomatik danışıqlar ABŞ-ın Azərbaycana qarşı təzyiqlərini neytrallaşdıracaq, müəyyən qədər neytral siyasət ortaya qoyacaq. Vaşinqtonun iki dövlət arasında sülh müqaviləsinin bağlanması istiqamətində səyləri qısa zamanda müsbət nəticə verməyəcək. Vaşinqtonun vasitəçiliyi Rusiyanın Ukraynada məğlub olması fonunda aktivləşib. Rusiyanın buna münasibəti sərt olacaq və Ermənistana qarşı Moskva təzyiqlərə başlayacaq. Onu da qeyd edim ki, Ermənistanın eks-prezidenti Levon Ter Petrosyan Azərbaycanla sülhün zəruriliyini vurğulayır və N. Paşinyana bu istiqamətdə kömək edir. Vaşinqton Azərbaycana təzyiqləri fonunda sülh müqaviləsinin bağlanmasını tələb edərsə, bu alınmayacaq. Çünki Ermənistanın qeyri-konstruktiv şərtləri var. ABŞ bu şərtlərlə getsə, müsbət nəticə olmayacaq".

Görünən odur ki, əksər güclər Azərbaycanla Ermənistan arasındakı qarşıdurmanı, bununla da regiondakı gərginliyi yatırtmaq istəyirlər. Hələlik Ermənistan müxtəlif vasitələrlə bundan yayınmağa çalışır. Amma Azərbaycanın son addımları da göstərir ki, Ermənistan üçün son şansdır. Əgər İrəvan ciddi nəticə çıxarmasa, ağır zərbə alacaq.



***Murad İbrahimli***



# Pensiyalarla bağlı nələr dəyişəcək - Detallar açıqlandı

***"Əmək pensiyaları haqqında" qanuna təklif olunan dəyişikliklər pozitiv xarakter daşıyır. Bu, həm də vətəndaşlarımızın pensiya təminatını yaxşılaşdıran, pensiya təminatı sahəsində unifikasiya aparmağa imkan verən və pensiyaların indeksasiya metodu ilə avtomatlaşdırılmış qaydada artırılmasına hüquqi baza yaradan layihədir.***

Bunu Modern.az-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Onun sözlərinə görə, qanunun 6 maddəsinə 42 dəyişiklik təklif olunur: "Bu dəyişiklikləri iki istiqamətdə şərh edə bilərik. Birinci istiqamət əmək pensiyalarının indeksasiya metoduna keçirilməsi ilə bağlıdır. Ümumiyyətlə, indeksasiya metodunun tətbiq olunması əmək pensiyalarını illik inflyasiya təhükəsindən qorumuş olur. Hazırda Azərbaycanda 1 159 000 pensiyaçının 93 faizi ümumi sığorta prinsipi əsasında pensiya alır. Onların pensiyaları hər ilin əvvəlində ötən illərdəki orta aylıq əmək haqqının artım faizinə uyğun olaraq artırılır. Beləliklə, inflyasiyanın mənfi təsirindən qorunmuş olur. Lakin 85 min pensiyaçının pensiyası hər il indeksasiya olunmur. Onların pensiyaları yalnız əvvəl işlədikləri vəzifələrdə maaşlar artarsa, maaşın artım faizinə uyğun olaraq artırılır. Maaş və pensiya artımlarının 3-5 ildən bir olması səbəbilə bu müddət ərzində həmin şəxslərin pensiyaları indeksasiya olunmamış qalır. Bu kateqoriyaya kimlər daxildir? Bu kateqoriyaya "Əmək pensiyaları haqqında" qanunun 20-ci maddəsinin təsiri altında olan şəxslər daxildir. Deputatlar, hakimlər, MSK üzvləri, prokuror, prokurorluq işçiləri, hərbçilər və dövlət qulluqçuları bu siyahıya aiddir. 10 ilin statisitikası göstərir ki, bu müddət ərzində ümumi əsaslarla pensiya alan şəxslərin pensiyası 98 faiz artdığı halda qulluq əlavəsinə görə pensiya alan şəxslərin pensiyası cəmi 70 faiz artmışdır. Burada bəzi kateqoriyalar üzrə artım ümumilikdə daha aşağı olub. Məsələn, hakimlərin 20 faiz, prokurorluq işçilərinin 13 faiz, hərbçilərin 59 faiz, dövlət qulluqçularının isə 69 faiz pensiyaları artıb. Bu pensiya artımı 3-5 ildən bir olduğu üçün inflyasiyanın mənfi təsirindən qoruna bilmir".

Komitə sədri vurğulayıb ki, "Əmək pensiyaları haqqında" qanuna təklif olunan dəyişikliklər bu ayrıseçkiliyi aradan qaldıracaq: "Dəyişikliklər bütün pensiyaçıların pensiyasını hər ilin əvvəlində indeksasiya edərək artırmaq imkanı yaradacaq. Digər bir dəyişiklik cənab Prezidentin ötən ilki sərəncamı ilə pensiyalara 200 manat məbləğində əlavələrin pensiyaların üzərinə daxil olunaraq və onun da indeksasiya olunub artırılması ilə bağlıdır. Buna görə də hesab edirəm ki, təklif olunan dəyişikliklər müsbətdir. Dəyişikliklər qəbul edildikdən sonra bütün növ əmək pensiyalarının miqdarı hər il vahid qaydada indeksləşdiriləcək, artırıla biləcək. Qulluq stajına görə, əlavə almaq hüququ olan şəxslərin pensiyaları hər il indeksasiya ediləcək və əvvəlki metoda nisbətən burada artım daha çox olacaq. Bununla da həmin şəxslərin sosial rifahı yaxşılaşmış olacaq. Pensiyaların indeksasiya olunaraq artırılmasının tamamilə elektronlaşdırılması mümkün olacaq. Eyni zamanda pensiyaçılar və onların xidmət göstərdiyi qurumların hər hansı məlumatı təmin etmək öhdəliyi də aradan qalxacaq".

## Prezident İzabel Dümonu qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

## 2023-cü il "Heydər Əliyev İli" elan edildi - Sərəncam



***Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Sərəncamda deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

## Parlament Vətən müharibəsi ilə bağlı bəyanat yayacaq



***Milli Məclis Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar bəyanat yayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ parlamentin sabah keçiriləcək plenar iclasının gündəliyinə daxil edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

## Bu halda sərnişinlər metroya buraxılmır

***"Metropolitenə keçirilməsi qadağan olunan əşyalar aşkar olunduqda həmin əşyalarla sərnişinlər stansiyalara buraxılmır".***

"Unikal" xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev deyib. O bildirib ki, Metropolitendə Polis Şöbəsinin əməkdaşları tərəfindən müəyyən olunan qayda və tələblərə uyğun xidmət təşkil olunub: "Bakı Metropolitenində sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra qabaqcıl üsul və texnologiyalar tətbiq edilir".

***Seymur Əli***

# Razılaşdırılmamış aksiyanın qarşısı alınacaq - DİN



***Daxili İşlər Nazirliyi bir qrup şəxs tərəfindən sentyabrın 30-da Milli Məclisin inzibati binası qarşısında aksiya təyin olunması barədə məlumatlara münasibət bildirilib.***

DİN Mətbuat Xidmətinin bölmə rəisi Zeyni Hüseynov "Unikal"a bildirib ki, razılaşdırılmamış aksiyanın qarşısı alınacaq:

"Onlar aksiya keçirmək niyyətləri barədə Bakı şəhər İcra Hakimiyyətinə müraciət ediblər. Müraciətə baxılıb və aksiyanın keçirilməsinin məqsədəuyğun olmaması barədə təşkilatçılara rəsmi cavab verilib. Buna görə də, Bakı şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış hər hansı aksiyanın və ya yürüşün keçirilməsinə cəhd edilərsə, bu qanunsuz hesab olunacaq və qarşısının alınması üçün zəruri olan bütün tədbirlər görüləcəkdir. Yeri gəlmişkən, yalan vədlərə inanaraq qanunsuz aksiyada iştirak etmək istəyənləri isə belə hərəkətlərdən çəkinməyə çağırıram".

Z.Hüseynov onu da vurğulayıb ki, ictimai asayişin pozulmasına yönəlmiş bu cür cəhdlərin qarşısı alınarkən polislərlə qanunsuz aksiyanın iştirakçıları arasında baş verə biləcək bütün hadislərin məsuliyyəti həmin razılaşdırılmamış aksiyanın təşkilatçılarının üzərinə düşəcəkdir.

# İranın Azərbaycandakı səfirliyinin qarşısında aksiya keçirilib



***Bir qrup şəxs İranın Azərbaycandakı səfirliyinin qarşısında piket keçirib.***

Aksiya iştirakçıları İranda baş verən hadisələrlə bağlı etirazlarını bildiriliblər. İştirakçılar "Cənubi Azərbaycana azadlıq", "Molla rejimi rədd olsun", "Fars rejimi rədd olsun", "Ölüm olsun İrana", "Diktator rədd olsun", "Molla rejimi qətliamı dayandır" , "Azadlıq, ədalət , "Milli Hökümət" kimi şüarlar səsləndiriblər.

Səfirliyin qarşısında aksiya iştirakçılarının bəyanatı səsləndirilib. Bəyanat səfirliyə təqdim edilib.

Aksiya insidentsiz başa çatıb.

# Kərim Vəliyev Gürcüstanda səfərdədir



***Gürcüstanda rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 29-da Tbilisi yaxınlığındakı Krtsanisi Milli Təlim və Tədris Mərkəzində olub.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan nümayəndə heyətinə mərkəzin tarixi və fəaliyyəti barədə geniş brifinq təqdim edilib. Sonra nümayəndə heyəti "Delta" Elmi Hərbi-Texniki Mərkəzini ziyarət edib.

Mərkəzdə istehsal edilən hərbi texnika və avadanlığa baxış keçirilib, hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Hərbi Hava Qüvvələrinin döyüş atışlı təlimi



***Cari ilin döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə döyüş atışlı təlim keçirilib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, təlimin senarisinə uyğun olaraq helikopter bölmələri bazalanma aerodromlarından uçuşlar edərək, poliqonda şərti düşmənin yerüstü hədəflərinin məhv edilməsi, eləcə də aviasiya vasitələrinin terror-diversiya qruplarından mühafizəsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

Döyüş fəaliyyətlərinin təşkili, o cümlədən qüvvələrin döyüşdə idarə olunması üzrə helikopter ekipajları və desant heyətlərinin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

# Prezidentdən "Elektron kənd təsərrüfatı" ilə bağlı fərman

***Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.***



”Unikal” xəbər verir ki, fərmana əsasən, “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilir:

1.1. aşağıdakı məzmunda 3.1.3-2-ci yarımbənd əlavə edilsin:

“3.1.3-2. “baytarlıq xidmətləri monitorinqi” altsistemi;”;

1.2. 3.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.3. “heyvandarlıq və süni mayalanma” altsistemi vasitəsilə heyvandarlıq təsərrüfatlarının, heyvanların və heyvan qruplarının qeydiyyatının aparılması, onların hərəkətlərinin izlənilməsi, mənşəyinin, təsərrüfat əhəmiyyətinin və istifadə təyinatının müəyyənləşdirilməsi, heyvanların xəstəlik tarixçəsinin (vaksinasiya daxil olmaqla) və onlara dair digər məlumatların (o cümlədən yaşı, cinsi, sağlamlıq vəziyyətinə dair məlumat, idxal edildiyi halda idxal nömrəsi və s.) qeydiyyatının aparılması, habelə bu Əsasnamənin 3.2.3-2-ci yarımbəndi nəzərə alınmaqla, heyvandarlıq təsərrüfatları üzrə fəaliyyət göstərən baytarlıq mütəxəssislərinin fəaliyyətinin əlaqələndirilməsi, heyvanların süni mayalandırılması işinin təşkili;”;

1.3. aşağıdakı məzmunda 3.2.3-2-ci yarımbənd əlavə edilsin:

“3.2.3-2. “baytarlıq xidmətləri monitorinqi” altsistemi vasitəsilə xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı dövlət büdcəsindən maliyyələşdirilən baytarlıq xidmətlərini həyata keçirən hüquqi şəxslərin və fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin (bundan sonra ? baytarlıq subyektləri) qeydiyyatı və müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinin elektron qaydada izlənilməsi, habelə onların fəaliyyətinin əlaqələndirilməsi;”;

1.4. 5.1.26-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.27-ci və 5.1.28-ci yarımbəndlər əlavə edilsin:

“5.1.27. xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı dövlət büdcəsindən maliyyələşdirilən baytarlıq xidmətlərinin göstərilməsi ilə bağlı bağlanılmış müqavilələrin icrası barədə məlumatlar;

5.1.28. heyvanların qırxım məntəqələri və qaramalın çimizdirilmə qurğularında həyata keçirilən xidmətlər barədə məlumatlar.”;

1.5. 7.1.1-ci yarımbənd üzrə:

1.5.1. 9-cu abzas aşağıdakı redaksiyada verilsin:

“9. EKTİS-də qeydiyyatdan keçən süni mayalanma və baytarlıq mütəxəssisləri, onların göstərdiyi xidmətlər haqqında məlumatları əldə etmək, habelə onlara müraciət etmək;”;

1.5.2. aşağıdakı məzmunda 14-17-ci abzaslar əlavə edilsin:

“14. baytarlıq subyektləri tərəfindən yerinə yetirilən baytarlıq xidmətlərini izləmək;

15. baytarlıq subyektləri tərəfindən yerinə yetirilən baytarlıq xidmətlərini qiymətləndirmək;

16. əməyin təhlükəsizliyi tədbirləri ilə tanış olmaq və təsdiqləmək;

17. heyvanların qırxım məntəqələrində və qaramalın çimizdirilmə qurğularında həyata keçirilən xidmətin yerinə yetirilməsini təsdiqləmək və ya imtina etmək;”;

1.6. 7.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“7.1.4. heyvandarlıq təsərrüfatlarında fəaliyyət göstərən, habelə xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı dövlət büdcəsindən maliyyələşdirilən baytarlıq xidmətlərini həyata keçirən müvafiq baytarlıq mütəxəssisləri:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. doğulmuş heyvanın sağlamlığı haqqında sənədləri (məlumatları) daxil etmək;

4. heyvandarlıq təsərrüfatları üzrə baytarlıq xidmətlərinin göstərilməsi və nəticəsi barədə məlumatları daxil etmək;

5. əməyin təhlükəsizliyi tədbirləri ilə tanış olmaq və təsdiqləmək;

6. baytarlıq xidmətləri göstərilən heyvanlar barədə məlumatları daxil etmək;

7. baytarlıq xidmətləri üzrə monitorinqin nəticəsi ilə tanış olmaq və qeydlərini daxil etmək;

8. müraciətləri izləmək və müraciət əsasında yerinə yetirdiyi baytarlıq xidmətləri barədə məlumatları daxil etmək;”;

1.7. aşağıdakı məzmunda 7.1.9-cu yarımbənd əlavə edilsin:

“7.1.9. heyvanların qırxım məntəqələri:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. müraciətləri izləmək və müraciət əsasında yerinə yetirdiyi xidmətlər üzrə məlumatları daxil etmək.”.

Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılır.

# Kiçik sahibkarlar üçün maliyyə fondu yaradılır

***“Son zamanların təcrübəsinə baxsaq, bir növ çərçivə xarakterli qanunların qəbul olunmasına daha çox üstünlük verilir”.***



”Unikal” xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında iqtisadiyyat nazirinin müşaviri Niyazi Səfərov deyib.

O bildirib ki, tarix göstərdi ki, nə dərəcədə mükəmməl qanun yazsan belə, onun tətbiqində qurumların rolu çox böyükdür: “Konkret bu qanun layihəsinin unikal xüsusiyyəti var. Burada bir çox maddələrin praktikada icrasını təmin edən mexanizmlər qurulub, yaxud qurulmaqdadır. Qanunu hər dəfə təkmilləşdirmək kifayət qədər çətin işdir. Bu qanun uzun müddətdir ki, müzakirə edilir. İqtisadiyyat Nazirliyində biz innovasiyalarla bağlı paket hazırlamışıq, bir müddət əvvəl paket Nazirlər Kabinetinə təqdim edilib. Yəqin ki, həmin paket üzərində təkmilləşdirmə işləri gedir. Kiçik sahibkarlar üçün ayrıca maliyyə fondu da yaradılır, burada işlər tamamlanmaq üzrədir. Hazırda tənzimləmədə nəticənin əldə olunması üçün ünvanlılığın təmin olunması çox vacibdir. Bizim “Sahibkarlıq haqqında” qanunumuz var. Amma insanlar kimi o da qocalıb. Biz ona müəyyən dəyişikliklər edirik”.



# Payız sessiyasının qanunvericilik işləri planı açıqlandı

***Milli Məclisin 2022-ci il payız sessiyasının qanunvericilik işləri planı məlum olub.***

“Unikal” xəbər verir ki, plana 10 məsələ daxil edilib:

1. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri;

2. Azərbaycan Respublikasının dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri;

3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin tövsiyələri nəticəsində hazırlanmış qanun layihələri;

4. “Hərbi qulluqçuların statusu haqqında” qanun layihəsi;

5. “Qiymətləndirmə fəaliyyəti haqqında” qanun layihəsi;

6. “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” qanun layihəsi;

7. “Dövlət-özəl sektor tərəfdaşlığı haqqında” qanun layihəsi;

8. “Ali təhsil haqqında” qanun layihəsi;

9. “Qeyri-maddi mədəni irsin qorunması haqqında” qanun layihəsi;

10. Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi haqqında qanun layihələri.

Qeyd edək ki, Milli Məclisin qanunvericilik işləri planı sentyabrın 30-da keçiriləcək plenar iclasda müzakirə ediləcək.

# Şahin Bağırov Gömrük Hospitalında olub

***Sentyabrın 28-də Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Mərkəzi Gömrük Hospitalında olub.***

Hospitalın kollektivi ilə görüşən Şahin Bağırov tibb müəssisəsinin ölkəmizdə insan sağlamlığının qorunması, müalicə sahəsində əhəmiyyətli işlər gördüyünü, gömrük xidmətində çalışan heyətin tibbi müayinəsini peşəkarlıqla həyata keçirdiyini, eləcə də qısa zaman ərzində nümunəvi fəaliyyəti ilə nüfuz qazandığını bildirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sistemində aparılan islahatların bu sahənin sürətli inkişafı üçün yeni imkanlar yaratdığı diqqətə çatdırılıb, Mərkəzi Gömrük Hospitalının da bu istiqamətdə inkişaf etdiyi vurğulayıb. Mərkəzi Gömrük Hospitalının pandemiya dövründə səmərəli fəaliyyəti və COVID-19 xəstələrinin müalicəsində tibbi personalın fədakar əməyi də yüksək qiymətləndirilib.

Şahin Bağırov gömrük sistemində həyata keçirilən işlərə uyğun olaraq Mərkəzi Gömrük Hospitalında xidmət səviyyəsinin daha da yüksəldilməsi, müasir müalicə texnologiyalarının öyrənilməsi və tətbiqi, kadrların potensialının gücləndirilməsi və toplanan təcrübənin bölüşülməsi ilə bağlı tövsiyələrini diqqətə çatdırıb. Daha sonra hospitalın yeni inşa olunan korpuslarında aparılan tikinti işləri ilə tanış olan Şahin Bağırov müvafiq göstəriş və tapşırıqları verib.

# Zəngilan aeroportunun açılacağı tarix bəlli oldu

***Zəngilan Hava Limanının nə zaman açılacağı məlum olub.***

Bu barədə “Unikal”a Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev açıqlama verib.

O bildirib ki, hava limanının oktyabrın ortalarında açılacağı gözlənilir.

# “Ermənilərі kənardan qızışdıranlar var”

## Qabil Hüseynli: “Sərhəddə təxribatlar törədirlər, sonra bunu dünyaya belə təqdim edirlər ki, Azərbaycan hücum edib, sərhədlərimizin içərisinə daxil olub”



***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ”Unikal”a müsahibə verib. O, Ermənistanın sərhəddə törətdiyi təxribatlardan, Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına kimlərin mane olmasından və s. məsələlərdən danışıb.***

***-Son günlər Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun bölmələrini müxtəlif çaplı atıcı silahlardan atəşə tutur. Düşmən yenidən sərhəddə vəziyyəti gərginləşdirməyə çalışır. Bunu etməkdə sizcə məqsədləri nədir?***

-Erməniləri kənardan qızışdıranlar var. Onlar düşünür ki, hər şeyi yenidən sıfır nöqtəsinə qaytarmaq olar. Ermənistan tərəfi 44 günlük Vətən müharibəsində necə məğlub olduqlarını, kapitulyasiya əməllərini yaddan çıxararaq, yeni iddialar irəli sürürlər. Dağlıq Qarabağın Azərbaycanın konstitusiyası çərçivəsində həll edilməli olduğunu deyən Ermənistanın baş naziri Nikol Paşinyan, indi tamamilə başqa hava çalır. O, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi gündəmə gəlməlidir, bununla ATƏT-in Minsk qrupu məşğul olmalıdır və s. fikirlər səsləndirir. Sürüşkən mövqeli erməni siyasiləri hansısa ölkələrdən ilhamlanaraq belə fikirlər səsləndirirlər. Sülhdən danışmaqdansa, sərhəd oyunlarına girişirlər. Sərhəddə təxribatlar törədirlər, sonra dünyaya belə təqdim edirlər ki, Azərbaycan hücum edib, sərhədlərimizin içərisinə daxil olub. Hər zaman yalanlarla məşğul olublar. Məzlum erməni obrazı yaradanlar, həmin obraza yeni rənglər qatmaq üçün qollarını çırmalayıblar.

***-Məlum olduğu kimi, Ermənistan Azərbaycanın əlaqələri normallaşdırmaq üçün təklifi etdiyi 5 prinsipi qəbul edib. Əsas məsələ, sülh müqaviləsinin imzalanmasıdır. Sülh müqaviləsinin imzalanması niyə gecikir?***

-Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilən görüşlərin nəticəsi var idi. Bu görüşlər sülhyaratma prosesini ölü nöqtəsindən tərpətmişdi, irəliyə doğru hərəkət var idi. Burada bir məsələni qeyd etmək lazımdır ki, Ermənistan hakimiyyəti birrəngli deyil. Bu ölkənin siyasi qüvvələri içərisində meydanı qızışdıran, sülhyaratma prosesini ləngidən şəxslər var. Onlar sülhyaratma prosesində müəyyən təşəbbüslərə tərəfdar çıxmış Nikol Paşinyanı satqın elan etmək və bununla onu devirib hakimiyyətə gəlmək kimi xülyalarla yaşayırlar. Həmin qüvvələrin təsiri nəticəsində sərhəd toqquşmaları baş verir. Düşünürəm ki, Paşinyan sülh müqaviləsini imzalanmasını istəyir. Amma bu istəyi həyata keçirmək üçün daxildəki ictimai rəydən çox ehtiyatlanır. Bu barədə Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan da fikrini deyib. O bildirib ki, çətin qərarlar olacaq və onu qəbul edənlər satqın da adlandırıla bilər. Ermənistan cəmiyyətində maksimalist baxışlar sistemi formalaşıb. Bu sistem reallıqları qəbul etmək iqtidarında deyil. Hər şeyin yaxşısı bizim olmalıdır deyərək, divanə fikirlərlə yaşayanlar çoxdur. Onların içərisində 3-5 nəfər reallığı qiymətləndirməyi bacaran siyasətçi var. Amma ümumilikdə erməni siyasi elitası reallığı olduğu kimi qavramaq qabilliyyətinə malik deyil. Onlar hər şeyə şişirdilmiş prizmadan yanaşmağa meyllidirlər. Aralarında avantüristlər də var. Onlara görə Paşinyan sülhyaratma prosesində axıra qədər tab gətirmir. Belə ki, Brüsseldə söz verir, ölkəyə qayıtdıqdan sonra daxili təzyiqlər nəticəsində mövqeyində dəyişiklik olur. Paşinyan hakimiyyətin bütün qollarına nəzarət edə bilmir. Ermənistan Müdafiə Nazirliyində olan ”Qarabağ klanı”nın nümayəndələrinin göstərişi ilə sərhəd toqquşmaları baş verir. Beləliklə, sülhyaratma prosesində ciddi əngəllər meydana çıxır. Hər dəfə sülhyaratma prosesi hərəkətə gələndə ona arxadan zərbə vuran müxtəlif kölgə qüvvələri peyda olur.

***-Əsas məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Sizcə bu məsələ niyə yubanır?***

-Kimin nə deməsindən asılı olmayaraq, Zəngəzur dəhlizinin açılması ilk növbədə Ermənistanın özü üçün əhəmiyyətlidir. Onları dərin blokadadan çıxarmaq üçün ən yaxşı vasitədir. Amma bu məsələdə də naz edirlər. Bununla yanaşı, İran tərəfi də burada müəyyən rol oynayır. Son zamanlar Zəngəzur dəhlizinin açılmasının reallığı daha çox nəzərə çarpır. O baxımdan ki, Rusiya da bunu istəyir. Rusiyanın Qərblə əlaqələri pisləşib və üzünü Türkiyə, İran, Çinə doğru çevirməyə məcburdur. Bu məsələdə həm Zəngəzur dəhlizi, həm də Rusiyanın Azərbaycanla birgə reallaşdırmağa çalışdığı Şimal-Cənub Dəhlizi böyük rol oynaya bilər. Zəngəzur dəhlizinin açılmasına heç kim mane ola bilməyəcək. Nə zaman reallaşacağı ilə bağlı konkret vaxt demək çətindir. Amma müəyyən vaxtdan sonra bu dəhlizin açılması üçün prinsipial razılaşmalar əldə ediləcək.

***-Hazırda qonşu ölkələrdə baş verən proseslər diqqət mərkəzindədir. Bir neçə gündür İranda etiraz aksiyaları keçirilir. Bu aksiyaların necə sonlanacağı gözlənilir?***

-İranda baş verən xalq etirazları kifayət qədər böyük miqyaslıdır. Onlar qarşılarına dəqiq hədəflər qoyublar. İrəli sürülən şüarların hamısı mövcud siyasi hakimiyyətin uzaqlaşdırılması, teokratik rejimdən dünyəvi rejimə keçirilməsi kimi məsələləri özündə ehtiva edir. Hər keçən gün aksiyalar daha da artır. Düşünürəm ki, bu hərəkatın içərisindən liderlər yetişir, təşkilatlar formalaşır. Tətbiq olunan ağır cəza tədbirləri hərəkatın vüsətini qıra bilmir, yüksələn xətt üzrə inkişaf edir. Bu məsələdə ABŞ-ın çəkingən hərəkət etməsi müəyyən qayğılar yaradır. Kənardan yardımlar olsa, indiki qüvvələrlə hazırkı rejimi tarixin səhnəsindən qovmaq olar. Bu məsələdə kənardan ciddi dəstək olmalıdır.

***-ABŞ-ın Moskvadakı səfirliyi Amerika vətəndaşlarını təcili olaraq Rusiya ərazisini tərk etməyə çağırıb. Bu çağırış nə ilə bağlı ola bilər?***

-Hadisələrin perspektivlərini görmək mümkündür. Rusiya müharibədə məğlub olur, ölkənin daxilində hakimiyyətin etimad dairəsi sürətlə aşağı düşür. Səfərbərliyə çağırılanlar buna müsbət reaksiya vermir, ölkədən qaçmağa çalışırlar. Artıq 1 milyondan çox çağırış yaşında olan şəxs ölkəni tərk edib. Bu, Rusiyanın tarixində misli görünməmiş hadisədir. Belə ki, orduya çağırılan insanlar getmək istəmir. Siyasi elitanın özündə də çürümə prosesi nəzərə çarpır. Rusiya bir neçə aydan sonra böyük təlatümlər dövrünə daxil ola bilər. Ona görə bəzi ölkələr öz vətəndaşlarını Rusiyaya səfər etməkdən çəkindirir. Rusiyanın vətəndaşları belə öz ölkəsində qalmır. Bu ölkədə vəziyyət getdikcə daha da pisləşir.

***Bir neçə gün əvvəl Rusiya Prezidenti Vladimir Putin çıxışı zamanı bildirib ki, ölkənin ərazi bütövlüyünə təhlükə olarsa, bütün atəş vasitələri, o cümlədən nüvə silahından istifadə edəcəklər. Necə düşünürsüz, Rusiya nüvə silahından istifadə edə bilərmi?***

-Bu fikirləri şantaj kimi qiymətləndirirəm. Rusiyada nüvə silahından istifadənin hansı nəticələrə səbəb ola biləcəyini düzgün hesablayıblarsa, bundan istifadə etməli deyillər. NATO və ABŞ tərəfindən onlara ciddi xəbərdarlıq olunub. Bu xəbərdarlıqlar əsassız deyil. Rusiyanın nüvə silahından istifadə etmək fikri olarsa, Qərb bunu dərhal biləcək və qabaqlayıcı zərbədən istifadə etməklə Rusiyanın iri şəhərlərini nüvə silahı və ya ağır tələfatlar verən digər raketlərlə atəşə tutacaq. Rusiyanın böyük şəhərləri yer üzündən silinmək kimi qorxulu aqibətlə üzləşə bilər. Öz milləti, dövləti qarşısında məsuliyyət hiss edən adamlar bunu başa düşməlidir və belə bir nüvə müharibəsinin olmasının qarşısını almalıdırlar.

***Anar Kəlbiyev***

# Azərbaycandakı iri çörək istehsalçılarının yeni oyunu...

## Özləri üçün "bir güllə ilə iki quş" vurub əvəzində vətəndaşlara ikiqat ziyan vuranlardan necə can qurtarmaq olar?

***Ötən ay Azərbaycanın iri un və çörək istehsalçılarının yaydığı birgə məlumatda bildirilirdi ki, 19 avqust 2022-ci il tarixindən unun və çörəyin qiyməti qalxır.***

Onlar qiymətlərin yuxarı hədlərini belə müəyyənləşdirmişdilər:

- 50 kq-lıq bir kisə unun Bakı şəhərində ən yüksək qiymət həddi - 40 manat 70 qəpik;

- 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 55 qəpik;

- 600 qr-lıq çörəyin pərakəndə satış qiyməti - 65 qəpik;

- 650 qr-lıq çörəyin pərakəndə satış qiyməti - 70 qəpik.

Bundan sonra isə mediada, istərsə də cəmiyyətdə belə iddialar, xəbərlər dolaşmağa başladı ki, unun və çörəyin qiymətinin artması çəkisinin azalması ilə nəticələnib. Bəzi çörək istehsalçıları isə bu strateji məhsulun çəkisində azalma olmadığını iddia edirlər.

Elə araşdırmalar da göstərirdi ki, çörək bağlamalarında göstərilən çəki ilə xalis çəki arasında 25 qramdan 50 qrama qədər fərq var.

Hazırda marketlərdə çörəyin qiyməti unun keyfiyyətindən, tərkibindən, qablaşdırmadan və çəkidən asılı olaraq dəyişir.

Bu gün yerli bazarda 55 qəpikdən 5 manata qədər müxtəlif tərkibdə və çəkidə çörək satılır. Bu situasiyalarda isə çox vaxt qiymətlərin şişirdilməsi və çəki ilə bağlı sui-istifadə halları baş verir.

Xatırladaq ki, aprelin 12-də Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilmişdi. Hökumət başçısı həmin müşavirədə qiymətlərin süni surətdə artırılması hallarının mövcudluğundan danışdı. Prezident süni qiymət artımının qarşısının alınması, eləcə də çörək və digər məhsulların qiymətinə nəzarət etmək üçün hökumətə tapşırıqlar verdi. Nazirlər Kabineti də öz növbəsində çörəklə bağlı yerli bazarda monitorinqlər apardıqlarını bəyan etdi.

Lakin uzun müddət idi ki, həmin monitorinqlərin nəticələri barədə ictimaiyyətə açıqlama verilmirdi. Nəhayət, yola salmaq üzrə olduğumuz həftə sözügedən yoxlamalardan biri barədə rəsmi məlumat yayıldı. Həmin məlumatda deyilirdi ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə "Bizim Market" MMC-nin satdığı, "Bakery" MMC-nin istehsalı olan çörəyin faktiki çəkisinin etiketdə göstərilən çəkidən az olması barədə daxil olmuş vətəndaş müraciəti araşdırılıb. Araşdırma nəticəsində istehlakçının çəkidə aldadıldığı müəyyən edilib. Nəticədə "Bizim Market" barədə inzibati xəta haqqında protokol tərtib olunub. Protokol və iş üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

Rəsmi məlumatda o da vurğulanıb ki, Dövlət Xidməti çörəyin qablaşdırılmasında çəkinin göstərilməsi və faktiki çəkinin etiketdə göstərilən çəkiyə uyğunluğuna əməl edilməsi ilə bağlı iri çörək istehsalçılarının və ticarət şəbəkələrinin rəhbərlərinə müraciət göndərib, onlardan qanunvericiliyə riayət olunmasını tələb edib. Bildirilib ki, istehlakçıların malların, işlərin və ya xidmətlərin miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə etmək hüququ var. Satıcı (istehsalçı) məhsulların kütləsi və yaxud çəkisi, əsas ölçüləri, həcmi və miqdarı barədə istehlakçılara düzgün məlumat verməlidir. Əks halda istehlakçıların aldadılmasına görə fiziki şəxslər 350-500 manat, vəzifəli şəxslər 1 500-2 000 manat, hüquqi şəxslər isə 4 000-6 000 manat inzibati qaydada cərimə edilir.



Beləliklə, çörəyin qiymətindəki bahalaşmadan sonra bəzi istehsalçıların bu məhsulun çəkisini azaltdığı, nəticədə, "bir güllə ilə iki quş" vurmağa çalışdığı təsdiqləndi. Aydın oldu ki, bəzi iri çörək istehsalçıları bir yandan qiyməti artırıb o biri yandan da çəkini azaldaraq faktiki şəkildə vətəndaşları aldatmaqdadırlar.

Ekspertlərin fikrincə, obyektiv monitorinqlər aparılacağı təqdirdə əksər çörək istehsalçılarının eyni yola baş vurduqları təsdiqini tapacaq. O da qeyd edilir ki, həmin istehsalçıların bir çoxu müəyyən vəzifəli şəxslərin himayəsində olduğundan analoji yoxlamalardan yayına bilir, beləliklə də, onların vətəndaşları aldatması davam edir.

Eyni zamanda vurğulanır ki, problemin aparılan monitorinqlər və tətbiq olunan cərimələrlə yoluna qoyulacağına ümid də azdır. Bunun üçün bazarda azad rəqabət imkanları genişləndirilməlidir. "Bu olmasa, qiymət qalxacaq, çəki isə aşağı düşəcək. Ona görə də bazara yeni oyunçular daxil olmalıdır" - əksər mütəxəssislər məhz belə qənaətdədirlər...

***Sənan Mirzə***

---



**Zaur Əhməd**

# Bir millətin məğrurluq günü...

***"Bizim buralarda Allah yolunda kəsilən qurbanların başına xına çəkərlər. Həm də ən gözəl qoçu seçib Allaha qurban edərlər. Mən də səni dörd qardaşının içində ən çox sevdiyim, ən gözəl bilidiyim üçün Vətən, Millət, Allah yolunda qurban seçmişəm. Bu yolda olan qurbanların başına xına çəkərlər, o üzdən mən də sənin başına xına çəkdim".***

Bu sözlər Çanaqqala savaşında şəhid olan "Kınalı Hasan" kimi tarixə düşən bir igidin anasının məktubundan seçmədir. Osmanlıda bəzi yerlərdə əsgərə yola salınan oğlanların əlinə, ayağına xına çəkmək adəti varmış. Çanaqqala savaşına gələn Hasanın isə başına xına çəkildiyini görən komutan bunun səbəbini sorubmuş. Hasan da anasına məktub yazıb sual edib. Əsgərin anasının məktubuna cavabı gələndə artıq Hasan şəhid olmuşdu. Komutan Hasanın anasının məktubunu oxuyub hönkür-hönkür ağlayır...

Qara torpağı müqəddəs edən şəhid qanıdırsa, o şəhidləri doğan belə analar da qəhrəmandır. Vətənə havayı yerdən Ana Vətən demirlər ki...

Bunu xatırlatmağımın səbəbi var. Azərbaycanın Vətən müharibəsinə başlamasından 2 il ötdü. Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. 27 sentyabr Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Anım Günü kimi qeyd edilir.

Azərbaycan tarixində kədərli, iztirablı, faciəli günlər çoxdur. Çünki başımıza çox müsibətlər gəlib, tarix boyu saysız itkilərimiz olub. Amma artıq ağlamaq, sızlamaq zamanı deyil. Biz niyə ağlayırıq? İgid oğullarımızı itirdiyimiz üçün. Doğrudur, od düşdüyü yeri, evi, ailəni daha çox yandırır. Lakin elə dərdlər, elə itkilər var ki, o bir evi, bir ailəni, deyil, bütün milləti ağrıdır, sarsıdır. Hər şəhid xəbəri gələndə adamın içi titrəyir.

Mən şəhid xəbəri gələn evin uşağı olmuşam, o acını yaşayaraq böyümüşəm. Lakin hər zaman içimdə bir təsəlli olub. İnanmışam ki, bu ölüm, o ölümlərdən deyil. Bu itki adi itki deyil. Bu itkini dözümlə, mətnliklə qarşılamaq lazımdır. Niyə? Çünki atan ölməyib şəhid olub. Çünki atası şəhid olanlar heç vaxt demirlər ki, atam yoxdu, rəhmətə gedib. Mən hər zaman hesab eləmişəm ki, atam yanımdadır, nə zamansa səsimə səs verəcək. Məncə, bu, ifadə olunması çətin olan ilahi bir şeydir.

27 sentyabr anım günüdür. Dövlətimiz belə qərar verib, qəbulumuzdur. Amma məncə, bu günü faciə günü kimi keçirmək lazım deyil. Bəli, itkilərimiz böyükdür, dərdimiz ağırdır, amma...

Biz uzun illərdir ki, qələbəyə tamarzı olan bir millətik. Bu qələbənin qarşılığında itkilərimizi də ötkəmliklə qəbul eləməliyik. Heç kim mənə şəhid verən ata-anaların, ailələrin, uşaqların fəryadı-faciəsindən danışmasın. Onları məndən yaxşı duymanız çətin məsələdir. 40 yaşım var indi də şəhidlər xiyabanında ata məzarının önündə olanda qırıqlığımı, içimdəki əskikliyi hiss edirəm. Hər kəs bir gün ölümü dadacaq, amma hamıya şəhidlik qismət olmayacaq. Bu, bizim təsəllimizdir.

27 sentyabrı Anım Günü kimi qeyd edək, itirdiyimiz qəhrəmanları, şəhid oğulları xatırlayaq, amma bunu faciə kimi qəbul etməyək. Onlar bizlərin millət, dövlət olaraq başımız dik, alnımız açıq gəzməyimiz üçün şəhid olublar. Onlar uca zirvədədirlər. Zirvəyə baxmaq üçün ayaqüstə, başıdik olmaq lazımdır.

Biz artıq belibükük, gözüyaşlı millət deyilik. Ağlasaq da için-için ağlamalı, amma qalib xalq kimi dik, məğrur dayanmalıyıq.



# Müdafiə Nazirliyi Sənan Əhmədova “şəhid ailəsi“ statusu verilməsini təklif edir

***Müdafiə Nazirliyi Ermənistanın sentyabrın 12-13-də törətdiyi təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan Səbuhi Əhmədova ”şəhid”, onun ailəsinə isə ”şəhid ailəsi” statusu verilməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna təqdim olunmaq üçün arayış verib.***

Bununla bağlı arayışı Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov sentyabrın 20-də imzalayıb.

Sənəddə qeyd olunub ki, gizir Əhmədov Səbuhi Fuad oğlu sentyabrın 13-də düşmən təxribatının qarşısının alınması zamanı həlak olub.

Bildirilib ki, ”Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən gizir Əhmədov Səbuhi Fuad oğlu ”Şəhid”, onun ailəsi isə ”Şəhid ailəsi” hesab edilir.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyindən verilən açıqlamada Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədovun şəhid ailəsi statusuna aid olmadığı bildirilib. ”Sənana qanunvericilikdə şəhid ailəsi statusunun kimlərə şamil edildiyi, bu statusun hansı qurum tərəfindən verildiyi izah edilib. Həmçinin həssas qruplardan olan internat məzunlarının mənzillə təmin edilməsi üçün meyarlar haqqında da onunla danışılıb. Sənanın təlim və tərbiyə aldığı “SOS Uşaq Kəndləri - Azərbaycan” Assosiasiyası Nizamnaməsinə görə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisə statusunda deyil. Buna baxmayaraq dövlətin qayğısının bir daha təzahürü olaraq Sənan Fuad oğlu Əhmədovun sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün Nazirlik hazırda mümkün olan təklifi - sosial tərəfdaş vasitəsilə təqdim olunan 1 otaqlı mənzili ona təklif edib. Sənan bundan imtina edərək 2 otaqlı mənzil istədiyini bildirib. Sənana qanunvericiliyin tələbləri barədə bir daha ətraflı məlumat verilib”, - Agentliyin məlumatında qeyd edilib.

# "Supermarketlərdə fırıldaqçılıq baş alıb gedir" - Deputat



***Regionlarda işsizliklə bağlı məsələni həll etmək lazımdır. Şəhərdə insanlar gedir “moyka” açır, bir şəkildə özünü dolandırır. Biz insanların regionlara qayıdış məsələsinə diqqəti artırmalıyıq.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin deputatı Rüfət Quliyev deyib.

”Digər bir problem isə supermarketlərlə bağlıdır. Hazırda supermarketlərdə fırıldaqçılıq baş alıb gedir. Vitrində “bakkuş”un qiyməti 1 manat 50 qəpik yazılır, kassada qiymət 1 manat 95 qəpik olur.

Ay balam, bu “bakkuş” kassaya qədər yolda necə 45 qəpik artdı?! Supermarketlərdə belə hallara nəzarəti artırmaq lazımdır”, - deyə o bildirib.

# Bakı Nəqliyyat Agentliyində indi də 7,5 milyon manatlıq qalmaqal

## Vüsal Kərimlinin "həyati vacib sərnişindaşıma"ya ayırdığı pullarla bağlı absurd qərarı ortalığı qarışdırdı

***Bakı Nəqliyyat Agentliyi (BNA) ətrafında növbəti qalmaqal yaranıb. Məsələ burasındadır ki, bir neçə gün öncə, Bakıda sərnişindaşıma ilə məşğul olan şirkət rəhbərləri iqtisadiyyat naziri Mikayıl Cabbarova müraciətlərində pandemiya ilə əlaqədar dövlətin ayırdığı vəsaitin onlara verilmədiyini göstərərək qeyd ediblər ki, Nazirlər Kabinetinin 4 aprel 2020-ci il tarixli, 135S saylı qərarı ilə “həyati vacib sərnişindaşıma sahəsinə” maliyyə dəstəyinin verilməsi üçün ayrılan pulun onlar üçün nəzərdə tutulmuş hissəsi ödənilməyib.***

Ən qəribəsi isə odur ki, BNA dövlətin sərnişindaşıma şirkətləri üçün nəzərdə tutduğu 7,5 milyon manatı “BakuBus” MMC-yə ayırıb. Bakı Nəqliyyat Agentliyinin (BNA) İdarə Heyəti sədrinin müşaviri Faiq Abbasov özü bu faktı İTV-də təsdiqləyib. Lakin həmin addımın səbəbini açıqlamayıb.




Bir sözlə, Nazirlər Kabinetinin sözügedən qərarında bəhs edilən vəsaitin BNA tərəfindən daşıyıcı şirkətlərə ayrılması qeyd edilsə də, agentlik bu vəsaiti öz təşkilatı hesab edilən BakuBus-a ayırıb. Bu addım isə yerli media tərəfindən 7,5 milyon manatın sağ cibdən sol cibə ötürülməsi kimi qiymətləndirilib.

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bununla bağlı ”bizimyol.info”ya açıqlamasında bildirib ki, Nazirlər Kabinetinin qərarında göstərilən vəsaitin həyat əhəmiyyətli, həyati vacib sərnişindaşıma sahəsində fəaliyyət göstərən şirkətlərin inkişafını, onların dayanıqlılığını təmin etmək, yəni xərclərini azaltmaq, təmir və digər xərclərini qarşılamaq məqsədilə ayrıldığını qeyd edib. Maliyyə Nazirliyi də öz növbəsində sözügedən vəsaiti Bakı Nəqliyyat Agentliyinə köçürüb. Lakin ”Bakı Nəqliyyat Agentliyi də özbaşına olaraq belə qərar qəbul edib ki, bu pulun hamısı BakuBus-a verilməlidir... Məqsəd nədir, onların burada nə marağı olub və s. kimi məsələlər araşdırılmalı, müəyyən edilməlidir ki, niyə BakuBus-a köçürülüb. Axı sənəddə qeyd edilməyib ki, vəsaitin hamısı BakuBus-a köçürülməlidir. Həmin vəsaiti daşıyıcı şirkətlərə köçürmək lazım idi. Hamısına bərabər şəkildə verilməli idi. Hesablanmalı idi, kimin payı nə qədər idisə, köçürülməli idi. Amma BNA həmin vəsaiti BakuBus-a köçürüb...”, - ekspert belə deyib.

Ən ilginc məqam odur ki, bu qədər dövlət vəsaiti müqabilində belə ”BakuBus”un durumu ürəkaçan deyil. ”Unikal”ın araşdırması nəticəsində aydınlaşıb ki, Hesablama Palatasının bu MMC-nin maliyyə fəaliyyətinə aid hesabatında sensasion məqamlar var. Belə ki, paytaxın bir çox nöqtələrində köhnə, istismar müddəti keçmiş avtobuslar istifadə edildiyi halda, 198 təzə avtobusun depolarda saxlanıldığı məlum olub.

Hesablama Palatasının verdiyi məlumata görə, dəyəri 100 minlərlə ölçülən bu avtobuslar sən demə, lazım olandan daha çox alınıb. Dövlət vəsaitinə alınan avtobusların isə 25.4 faizi depolarda saxlanılıb. Əlavə olaraq 320 ədəd sərnişin avtobusunun sifariş verildiyini nəzərə alsaq, sözügedən faizin artacağı istisna olunmur.

Üstəlik, ”BakuBus” ilbəil zərər etməkdədir. Bir sözlə, bu MMC faktiki olaraq öz çöküşünü yaşayır. Aydın görünür ki, onun idarəetməsində ciddi, köklü problemlər var. Belədə, Vüsal Kərimli 7,5 milyonu hansı məntiqlə, qalmaqallı şəkildə ”BakuBus”a yönəldib? Burada doğrudanmı xoş niyyətdən danışmaq mümkündür?!

Ən əsası isə, sərnişindaşımadakı digər şirkətlərin aqibəti necə olmalıdır? Doğrudanmı, BNA rəhbəri düşünür ki, ya həmin şirkətlər batsınlar, ya da gedişhaqlarını artıraraq, vətəndaşın cibini zərərə salaraq ayaqda qalmağa çalışsınlar?!

Görünür, Bakıda sərnişindaşıma ilə məşğul olan şirkət rəhbərləri də Vüsal müəllimin qalmaqallı addımından bu qənaətə gəliblər ki, gedişhaqlarının artırılması təşəbbüsü ilə çıxış ediblər.

Belə çıxır ki, BNA rəhbərliyi həmin şirkətlərə onsuz da sosial-iqtisadi çətinliklər yaşayan əhalini narazı salacaq addım atmaqdan başqa yol qoymayıb. Yəni, mümkün gedişhaqqı bahalaşmasının ”gizli memarı” kimi adıçəkilən Agentliyi göstərmək mümkündür. Qurum hökumətin ”həyati vacib sərnişindaşımaya” 7,5 milyon manatlıq kifayət qədər yüksək məbləği dəstəyindən öz bildiyi kimi faydalanırsa, başqa cür düşünmək də xeyli məntiqsiz olardı...

O da maraqlıdır ki, sözügedən vəsait ətrafında yaranmış qalmaqala BNA-dan hələ də hər hansı münasibət bildirilməyib. Halbuki, agentlik rəhbərliyi “həyati vacib sərnişindaşıma” üçün ayrılmış dövlət vəsaitinin Bakıda sərnişindaşıma ilə məşğul olan şirkətlərdən ötrü nəzərdə tutulmuş hissəsini niyə ödəmədiyi, sözügedən vəsaiti hansı səbəbdən tamamilə BakuBusa-a yönəltdiyi barədə ağlabatan izahat verməyə borcludur. Ən azı ona görə ki, bu məsələ artıq yalnız həmin şirkətləri yox, gedişhaqlarının bahalaşacağından narahat olan yüzminlərlə paytaxt sakinini də düşündürməyə başlayıb...

***Toğrul Əliyev***

# Qazilərdən rüşvət alanlara "mükafat" kimi cəza...

## Həftənin sualı: bu cür cəzalarla rüşvətxor vəzifəlilərdən canımızı biryolluq qurtara bilərikmi?



***Yola salmaq üzrə olduğumuz həftənin ən maraqlı, lakin nədənsə media və cəmiyyətin diqqətini bir o qədər çəkməyən xəbəri qazilərdən rüşvət alan vəzifəli şəxslərə yüngül cəza verilməsi oldu. Belə ki, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının bölmə rəisi Vüsal Eyvazovun və hospitalın digər əməkdaşı Hüseyn Ağayevin cinayət işi üzrə məhkəmə araşdırması başa çatdı. Bununla bağlı APA-nın xəbərində deyilirdi ki, Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən iclasda hökm oxunub.***

Hökmə əsasən, təqsirləndirilən şəxslərə münasibətdə Cinayət Məcəlləsinin 62 (sanksiya həddindən aşağı cəza təyin etmə) maddəsi tətbiq olunub və...

Və Vüsal Eyvazov 2 il, Hüseyn Ağayev isə 1 il 6 ay azadlıqdan məhrum edilib.

Öncə onu qeyd edək ki, ittiham olunan şəxslər Dövlət Təhlükəsizliyi Xidməti( DTX) tərəfindən həbs olunublar. Faktla bağlı başlanılmış cinayət işi üzrə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının bölmə rəisi Eyvazov Vüsal Qorxmaz oğlunun xidməti vəzifələrinin icrası zamanı həmin Hospitalın digər əməkdaşı Ağayev Hüseyn İlham oğlunun vasitəsilə çoxsaylı hərbi qulluqçuların hər birindən onlara dövlət tərəfindən birdəfəlik sosial sığorta müavinətinin ödənilməsi üçün Vətən müharibəsində aldıqları xəsarət dərəcələrinin təyin edilməsi müqabilində pul vəsaitlərini rüşvət qismində istəyərək almasına əsaslı şübhələr müəyyən edilib. Bundan sonra keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində Vüsal Eyvazov və Hüseyn Ağayev cinayət başında yaxalanıblar. Vüsal Eyvazov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2 (vəzifəli şəxs tərəfindən təkrar rüşvət alma), Hüseyn Ağayev 32.5, 311.3.2 (təkrar rüşvət almada iştirakçılıq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Sonda da məhkəmə onlara kifayət qədər yüngül cəza verməklə kifayətlənib.

Öncə məsələnin mənəvi tərəfindən danışaq. Sağlamlığını vətən, millət və dövlət uğrunda fəda edən insanlardan - qazilərdən rüşvət istəmək hansı əxlaqa sığır? Rüşvət, əlbəttə ki, həmişə pisdir, kimdən alınmasından asılı olmayaraq həm hüquqi, həm də mənəvi baxımdan cinayətdir. Əgər o, bir qazidən istənilirsə, alınırsa artıq bu hüquqi və mənəvi məsuliyyət ikiyə qatlanır, yəni ortaya ikiqat cinayət çıxır.

O ki, qaldı məsələnin qanuni tərəfinə, burada da hər hansı bəraətverici, yaxud yüngülləşdirici məqamdan danışmaq mümkün deyil. Son illərdə ölkədə korrupsiyaya və rüşvətxorluğa qarşı genişmiqyaslı, eyni zamanda kəskin mübarizə aparılır, ancaq təəssüf ki, biz həmin mübarizə çərçivəsində qandallanan vəzifəli şəxslərin bir sıra hallarda məhkəmə tərəfindən yüngül cəzalandırılmasına, belələrinin hətta çox keçmədən azadlığa buraxılmasına şahid oluruq.

Əksəriyyət bu qənaətdədir ki, kifayət qədər məmur həbslərinə baxmayaraq Azərbaycanda hələ də davamlı şəkildə rüşvət və korrupsiya hallarına rastlanması bir az da bununla bağlıdır - bir sıra vəzifəli şəxslər "gözü çıxmış qardaşlardan" ona görə dərs almır, bəhs edilən qanunsuzluqları ona görə davam etdirirlər ki, sonda hansısa yolla yüngül cəza alaraq, uzaqbaşı bir neçə il həbsdə yataraq sonda azadlığa çıxacaqlarını düşünürlər.

İllər uzunu müəyyən post tut, dövlət vəsaitlərini ye-dağıt, vətəndaşı soy, hətta qazilərə belə vətən, millət naminə aldıqları xəsarətləri rüşvətlə sənədləşdir, beləcə, özünə inanılmaz sərvət topla, sonra da gedib 1-2 il, uzağı 3-5 il həbsdə yataraq çıx və həmin sərvəti oturub rahatca, xımır-xımır ye! Yaxşı, belədə biz ölkədə rüşvətə, korrupsiyaya biryolluq son qoyulacağına, aparılan mübarizənin effektivliyinə hansı məntiqlə ümid bəsləyə bilərik?

Axı məhkəmələrdə cəzalar yalnız kimlərisə öz qanunsuz əməllərinin bədəli, qarşılığı olaraq çıxarılmır.

Cəzalar həm də ona görə təyin olunur ki, başqalarını da qanunsuzluqdan, cinayətkar fəaliyyətlərdən çəkindirsin. Hər kəs görsün, bilsin və əmin olsun ki, hüquq onu çeynəməyə, yox saymağa, onu ayaqlar altına atmağa çalışanları heç bir halda bağışlamır!

Məhz buna görə də beynəlxalq praktikada məhkəmə hökmləri verilərkən, cəzalar müəyyənləşdirilərkən bu hökmlərin, cəzaların eyni zamanda cəmiyyət üçün örnək təşkil etməsi də nəzərə alınır.

Elə isə biz niyə bir sıra hallarda əksini müşahidə edirik?! Niyə yaradılan nümunə başqalarını da qanunsuz fəaliyyətdən çəkindirməyə hesablanmır? Axı yalnız bu halda biz hansısa cinayətkar əməllərin, indiki situasiyada konkret olaraq rüşvətxorluğun, korrupsiyanın kökünü kəsməyin mümkünlüyündən danışa bilərik!

***Sənan Mirzə***

# "Cəbrayılda ən ağır döyüşlər bu ərazidə getdi" - Ordumuzun mayoru

***"Cəbrayılın azad olunması uğrunda ən ağır döyüşlər "Teleqüllə" adlandırılan ərazi istiqamətində oldu".***

"Unikal" xəbər verir ki, bunu "Report"a açıqlamasında Azərbaycan Ordusunun mayoru, Vətən müharibəsinin iştirakçısı Emin Ağamalıyev deyib.

O bildirib ki, düşmənə nifrət və torpaqlarımızın işğaldan azad edilməsi uşaqlıq arzusu olub.

"2007-ci ildən Azərbaycan Silahlı Qüvvələrində zabit olaraq xidmət edirəm. Sentyabrın 26-da bizə qəfil əmr gəldi. Rabitənin təşkili məqsədilə göstərilən istiqamətdə olmalı idik. Biz dərhal komandanı yerinə yetirərək hərəkətə başladıq. Sentyabrın 27-i səhər saatlarında ora çatdıq və öz mövqelərimizi quraraq növbəti əmri gözlədik. Bir gün sonra isə bizə təcili əmr gəldi ki, Füzuli rayonunun Horadiz istiqamətinə gedib rabitə qurulmalıdır. Orada təpələrin birinin ətəyində öz texnikalarımızı saxladıq və növbəti komandanı gözlədik", - Azərbaycan Ordusunun mayoru söyləyib.

Zabit vurğulayıb ki, oktyabrın 7-si döyüş texnikalarını Cəbrayıl rayonunun Şükürbəyli kəndi istiqamətində yerləşdiriblər: "Oktyabrın 10-da isə Cəbrayılda "Teleqüllə" deyilən ərazidə rabitənin təşkili məqsədilə mövqelərimizi qurduq. Məhz ən çətin döyüşlər də bu istiqamətdə oldu. Ora daxil olmaq çox çətin idi. Çünki düşmənin texnika və canlı qüvvəsi həddindən artıq çox idi. Onlar bizi daha çox artilleriya atəşinə tuturdular. Ərazidə özümüzü qorumağa mövqe yox idi. Ruh yüksəkliyi bizdə çox olduğuna görə o çətinliklərə qalib gəldik".

E.Ağamalıyev deyib ki, müharibənin ilk günlərindən düşmənin qorxu və həyəcan içində olması açıq-aşkar özünü biruzə verirdi:

"Ermənilərin şəxsi heyətinin çox olmasına baxmayaraq, qeyri-bərabər döyüşlərdə bizdəki nifrət və qəzəbi görüb döyüş texnikalarını atıb qaçırdılar. Təbii ki, biz də düşmənin atıb qaçdığı həmin texnikalardan elə onların özünə qarşı istifadə edirdik".

"Ailəliyəm iki övladım var. Müharibə zamanı mən şəxsən ailəmlə oktyabrın 26-na qədər əlaqə saxlaya bilmədim. Çünki qızğın döyüşlərdə ailə yadıma düşmürdü, beynimdə yalnız bir fikir var idi - düşməni məhv etmək, qələbə müjdəsini xalqımıza çatdırmaq. Torpaqlarımız şəhidlərimizin canı, qanı hesabına işğaldan azad edildi. Döyüşlərdə mayor Müseyib Zeynalovun şəhid olması məni daha çox sarsıtdı. Çox savadlı, öz şəxsi heyətinin qeydinə qalan, şən zabit idi. Dünyaya mesaj olaraq bildirmək istəyirəm ki, Azərbaycan Ordusu müzəffər və qalib ordudur. Biz öz gücümüzlə düşmənin istənilən vaxt təxribatının qarşısını almağa qadirik", - zabit vurğulayıb.

Qeyd edək ki, E.Ağamalıyev Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

# Anar Kərimov Mexikoda Dünya Konfransında

***2022-ci il sentyabrın 28-də Meksika Birləşmiş Ştatlarının paytaxtı Mexiko şəhərində UNESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin Mədəni Strategiya və Dayanıqlı İnkişafa dair Dünya Konfransı ("Mondiacult 2022") öz işinə başlayıb.***

Mədəniyyət Nazirliyindən "Unikal"ya verilən məlumata görə, tədbirə 115 ölkədən yüksək səviyyəli olmaqla, ümumilikdə 160 ölkədən nümayəndə heyəti qatılıb.

Üç gün ərzində davam edəcək konfrans çərçivəsində iştirakçılar "İrs və Mədəni müxtəliflik böhran dövründə", "Yenilənmiş və gücləndirilmiş mədəniyyət siyasəti", "Mədəniyyət dayanıqlı inkişaf üçün", "Yaradıcı iqtisadiyyatın gələcəyi" mövzularında müzakirələr aparacaq.

Ölkəmizi bu tədbirdə nazir A.Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. Nazir A.Kərimovun "İrs və mədəni müxtəliflik böhran dövründə" mövzusunda çıxışı, habelə bir sıra ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulur.

Konfrans çərçivəsində nazir A.Kərimovun Macarıstanın Mədəniyyət məsələləri üzrə dövlət katibi Piter Hoppalla görüşü keçirilib. Görüşdə iki ölkə arasında digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin yüksələn xətlə inkişaf etdiyi vurğulanıb.

Həmçinin qeyd olunan sahədə əməkdaşlığı tənzimləyən müqavilə bazasının daha da möhkəmləndirilməsinin zəruriliyinə istinad edilib. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildiyi və növbəti il "Avropanın mədəniyyət paytaxtı" olacaq Macarıstanın Vesprem şəhəri ilə Şuşa arasında birgə mədəni layihələrin həyata keçiriləcəyi qeyd olunub.örüşdə eyni

# Hacı Tahirin oğlu barəsində cinayət işi başlandı

***Həcc ziyarəti zamanı tanış olduğu şəxsdən gömrükdən mal keçirmək adı ilə pul alan şəxs barəsində cinayət işi başlanıb.***

“Qafqazinfo”nun məlumatına görə, Hüseynağa Şahmarova qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) və 312-ci (rüşvət vermə) maddəsi ilə cinayət işi başlanılıb.

Ötən gün Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən iclasda H.Şahmarov barəsində ittiham aktı elan olunub. Məhkəmədə məlum olub ki, H.Şahmarov gömrük brokeri kimi fəaliyyət göstərib. O, Məkkədə Həcc ziyarətində olarkən tanış olduğu Ceyhun adlı şəxsdən 4 min manat pul alıb. Belə ki, H.Şahmarov Bakı Baş Gömrük İdarəsində Ceyhuna məxsus 3 TIR mal olduğunu və idarədən buraxılmadığını öyrənib. Təqsirləndirilən şəxs Ceyhuna həmin malları gömrük yoxlanışından sürətli şəkildə keçirəcəyinə dair vəd verib. Orada çalışan Dövlət Vergi Xidmətinin əməkdaşları ilə şəxsi tanışlıqları sayəsində 2 maşın malı ərazidən buraxdırıb. Üçüncü maşında riskli mallar olduğu üçün idarədən buraxılmayıb. Bu zaman Ceyhun etiraz edərək, mallarının buraxılmağı üçün pul verdiyini deyib. Bundan sonra işin üstü açılıb və Ceyhun H.Şahmarova hər maşına görə 2 min manat pul verdiyini bildirib.

Məhkəmədə ifadə verən H.Şahmarov pulu rüşvət qismində almadığını deyib: “Mən 8 dəfə Məkkədə olmuşam, haram pul yeyən deyiləm. Mən vergidə müavin işləyən Cavid müəllimi tanıyırdım. Broker kimi orada Cavid müəllimlə ünsiyyətimiz çox olurdu. Ondan xahiş elədim ki, Ceyhunun mallarını buraxsınlar. Ceyhun da pulu özü mənə verdi ki, əziyyət çəkmisən. Sonra da pulu özünə qaytarmışam”.

Məhkəmə istintaqı davam edir.

Qeyd edək ki, H.Şahmarov Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, “Təzə Pir” məscidində imamın müavini işləyən Hacı Tahirin (Tahir Şahmarov) oğludur.

# Azərbaycan - Pakistan Texnologiya Forumu keçirildi



***29 sentyabrda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi və Pakistan - Azərbaycan İqtisadi Əməkdaşlıq Palatasının (PAKAZCHAM) təşkilatçılığı ilə Azərbaycan - Pakistan Texnologiya Forumu keçirilib.***

”Unikal” xəbər verir ki, forumda hər iki ölkədən müxtəlif sahələri təmsil edən şirkətlərin nümayəndələri iştirak ediblər.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında Azərbaycan və Pakistan arasında qarşılıqlı etimada, dəstəyə və faydalı əməkdaşlığa əsaslanan güclü tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu, bu il diplomatik münasibətlərimizin qurulmasının 30 illiyinin qeyd edildiyini bildirib.

Nazir əlavə edib ki, cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “yaradıcı və innovativ cəmiyyət”in qurulmasının zəruriliyi ifadə olunub. Bu vizyonu həyata keçirmək üçün bizə innovasiya ekosistemi lazımdır. İxtiralar olmadan isə yenilik mümkün deyil. Beləliklə, sağlam təməl üzərində universitetlərin tədqiqat və inkişaf imkanları ilə dəstəklənən, elm və texnologiyaya əsaslanan güclü sənayeyə ehtiyac var.

“Biz Pakistanın texnologiya şirkətlərini Azərbaycanda tədqiqat mərkəzləri yaratmağa dəvət edirik”, - deyə Rəşad Nəbiyev vurğulayıb.

Qeyd olunub ki, biznes imkanlarının araşdırılması davamlı bir prosesdir. Bu, müntəzəm məlumat mübadiləsini və biznes icmaları arasında birbaşa əlaqələrin təşviqini tələb edir. Azərbaycan - Pakistan Texnologiya Forumu bu cür məlumat mübadiləsini təşviq etmək və yeni işgüzar münasibətləri asanlaşdırmaq üçün effektiv platforma rolunu oynayacaq.

Forumda AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye, PAKAZCHAM-ın prezidenti Xürrəm Bhatti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov, Pakistan Proqram İxrac Şurasının Kommersiya direktoru Zeeşan Rehman Xattak çıxış edib.

Tədbir çərçivəsində Azərbaycan və Pakistanın texnologiya şirkətləri tərəfindən təqdimatlar nümayiş olunub.

Forum B2B və B2G formatında görüşlərlə davam edib.

**ELAN**

**İbadlı Cəmil Samir oğluna məxsus şəxsiyyət vərəqəsi itdiyi üçün etibarsız sayılır.**

# Çingiz Əsədullayev müəmması...

## Sabiq bankir-deputatdan niyə xeyli vaxtdır səs-səmir yoxdur?

***Sentyabrın 28-də ”Bakı Hərrac Mərkəzi” MMC-də ləğv prosesində olan ”AGBank” ASC-nin daşınmaz əmlakının satışı üzrə açıq hərrac keçirilib.***

Bankın ləğvedicisi - Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun (ADIF) daha əvvəl yaydığı məlumata görə, söhbət Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Viktor Seryogin küçəsi, ev 1 ünvanında yerləşən, ümumi sahəsi 453,2 kvadratmetr olan fərdi yaşayış evindən gedir. Əmlaka 154 min manat qiymət qoyulub.

Xatırladaq ki, Azərbaycanda ən böyük əmlak və avadanlığa sahib olan “AGBank”ın Müşahidə Şurasının sədri keçmiş deputat Çingiz Əsədullayev idi. O, 2020-ci ilin ilk yarımilliyində ləğv edilən bankın həm də iri pay sahiblərindən biri idi.



Əsədullayevin adı son dəfə medianın gündəminə ötən ilin aprelində gəlmişdi. Həmin vaxt “A-Group Sığorta Şirkəti” ASC-nin Direktorlar Şurasından çıxarılacağı iddia edilmişdi. Lakin sonradan bu barədə hər hansı rəsmi açıqlama gəlmədi.

Həmin vaxtdan bu yana eks deputat-bankirlə bağlı səs-soraq yoxdur.

Xatırladaq ki, Çingiz Əsdullayev 10 il boyunca (2005 - 2015) Ağdaşdan deputat seçildikdən sonra üçüncü dəfə də eyni dairədən deputat mandatı qazanmış, lakin nəticələr ləğv olunmuşdu. Buna səbəb isə onun adının da ”MTN işi”ndə hallanmasıydı. Hətta həmin vaxt Əsədullayevin Azərbaycanı tələm-tələsik tərk etdiyi də bildirilmişdi. Lakin keçmiş deputat-bankir bu xəbərləri “Mənim ölkədən qaçmağımla bağlı son vaxtlar yayılan xəbərlər yalan və böhtandan başqa bir şey deyil” deyə təkzib eləmiş, ardınca isə iddialı danışmışdı. O bundan sonra 36 il məşğul olduğu bank sahəsində fəaliyyətini davam etdirəcəyini və ciddi islahatlara ehtiyacı olan bank sahəsində sözünü deyə biləcəyini söyləmişdi.

Bankir ölkədən getməsi haqda deyilənlərə xüsusi münasibət bildirmiş, 6 övladı olduğunu, onların hamısının Azərbaycanda təhsil aldıqlarını, burada yaşadıqlarını, əmək fəaliyyətilə məşğul olduqlarını vurğulamışdı. “Mən ailəmi qoyub haraya gedə bilərəm? Öz şəxsi ailəmdən başqa 750 nəfər əməkdaşı olan “Azəriqazbank” (AGBank - red.) adlı ailəm var, kim öz ailəsinə xəyanət edər?”, - demişdi.

Lakin bundan cəmi bir il sonra Əsədullayevin ikinci ailəsi dağıldı - bankı bağlandı.

Belə ki, AGBank” ASC-də müvəqqəti inzibatçı tərəfindən aparılmış dəqiqləşdirmələr həmin bankın maliyyə vəziyyətinin qeyri-qənaətbəxş olduğunu, kapital mövqeyinin tam itirildiyini təsdiqləmiş və getdikcə daha da pisləşdiyi məlum olmuşdu. ”30 aprel 2020-ci il tarixinə bankın kredit portfelinin 51%-i qeyri-işlək statusundadır. Məqsədli ehtiyatlarda aparılan korreksiyalardan sonra bankın məcmu kapitalı mənfi 167 mln. manat təşkil edib. Kapital mövqeyinin bərpası üçün 212 mln. manat məbləğində əlavə kapital qoyuluşu tələb olunub” deyə həmin vaxt Mərkəzi Bankdan verilən açıqlamada bildirilirdi.

Elə qeyd olunanları nəzərə alaraq - kapitalını tam itirdiyinə, kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilmədiyinə, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə Mərkəzi Bankın İdarə Heyəti tərəfindən 12 may 2020-ci il tarixindən etibarən “AGBank” ASC-nin lisenziyası ləğv edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunmuşdu.

Beləcə, 10 illik millət vəkili mandatını itirməsinin ardından Ç.Əsədullayev 36 il məşğul olduğu bank sahəsindən də ayrılmışdı - bu sahədə fəaliyyətini davam etdirəcəyi və ciddi islahatlara ehtiyacı olan bank sahəsində sözünü deyə biləcəyi barədə iddialı açıqlamasına baxmayaraq!

Hazırda isə az qala ilyarımdır sabiq deputat-bankirdən səs-səmir yoxdur. Onun harada olduğu və nə iş gördüyü bəlli deyil.

Əsədullayevin ölkədə qalıb-qalmadığı, xaricə üz tutub-tutmadığı da bəlli deyil. Hərçənd, o, vaxtilə Azərbaycandan qaçdığı barədə xəbərlərə münasibət bildirərkən ailəsinə, ölkəyə, vətənə, dövlətə heç zaman, heç bir halda xəyanət etməyəcəyini, öz əvvəlki mövqeyində qalacağını söyləyərək həm də belə demişdi: ”Əgər bir gün yenə eşitsəniz ki, ölkədən getdiyimi deyirlər, yenə də inanmayın!”

Nəzərə alsaq ki, keçmiş deputat-bankir vaxtilə bank sektorunda fəaliyyətini davam etdirəcəyi və bu sahədə öz sözünü deyəcəyi barədə də iddialı danışmış, lakin bunun tamamilə əksi baş vermişdi, indi onun ölkədən getməməklə bağlı iddialı sözlərinə nə qədər bel bağlayıb-bağlamamaq lazım gəldiyini də oxucuların öhdəsinə buraxırıq...

***Toğrul Əliyev***

## 6.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Media Reyestri mətbuata və jurnalistlərə nə vəd edir?

***Prezident İlham Əliyev bu günlərdə imzaladığı Fərmanla “Media Reyestrinin aparılması Qaydaları”nı təsdiqləyib. Fərmana əsasən, Medianın İnkişafı Agentliyinə (MEDİA) Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb.***

Bəs görəsən Media Reyestrinin yaradılması media və jurnalistlər üçün nə vəd edir?

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid “Unikal”a bildirib ki, bir müddət öncə yeni “Media haqqında” qanunda Media Reyestrinin yaradılması öz əksini tapıb. R. Məcid deyir ki, bu barədə cənab prezident tərəfindən fərman imzalanıb: “Azərbaycan media məkanı son vaxtlar çox genişlənib. Buraya çoxlu kənar müdaxilələr var. Peşəkar mətbuat işçiləri ilə qeyri-peşəkarların sərhəddini bəzən müəyyənləşdirmək olmur. Media Reyestri peşəkar jurnalist fəaliyyəti ilə məşğul olanları qeyri-peşəkarlardan ayırmaq imkanı yaradacaq. Bu zaman kimin peşəkar jurnalist fəaliyyəti ilə məşğul olduğu məlum olacaq”.

MŞ-nın yeni rəhbəri bildirdi ki, Media Reyestri jurnalistlərin peşə fəaliyyətinə maneə yaratmayacaq: “ Bu o demək deyil ki, Media Reyestrinə düşməyən jurnalistlərin fəaliyyətinə məhdudiyyət qoyulacaq. Peşəkar jurnalistlər üçün dövlətin də bir sıra imtiyazları nəzərdə tutulub. Hesab edirik ki, gələcəkdə bu imtiyazlar daha da çoxalacaq. Azərbaycan Mətbuat Şurası mətbuatın özünü tənzimləmə qurumudur və jurnalistlərin etik davranış qaydaları əsasında fəaliyyət göstərir. Bütün ictimaiyyətə, mediaya da çağırışımız ondan ibarətdir ki, genişlənən informasiya məkanında da etik davranış qaydalarına riayət etsinlər”.

“Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli isə “Unikal”a bildirib ki, “Media Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı “Media haqqında” Qanunda nəzərdə tutulan bir sıra mühüm hüquqi tənzimlənmə mexanizmlərin hərəkətə gətirilməsi və tətbiqi baxımından mühüm əhəmiyyətə malikdir və media sektorunda informasiya və kommunikasiya texnologiyalarının inkişafının, fərdlərin və topluluqların informasiya təhlükəsizliyini təhdid edən çağırışların yaratdığı reallıqlardan sui-istifadə hallarının məhdudlaşdırılmasına, vətəndaşların, jurnalistlərin və media subyektlərinin hüquqlarının qorunmasına önəmli töhfə verəcək. Onun sözlərinə görə, Media Reyestrinə bəzi maraqlı qruplar və onların yanlış, yaxud məqsədyönlü təbliğatının təsiri altına düşən şəxslər tərəfindən hansısa mücərrəd, ölçüyəgəlməyən anlayışların “məhdudlaşdırılması” kontekstindən təqdimatı kökündən yanlışdır. “



**Rəşad Məcid:**
**“Bu o demək deyil ki, Media Reyestrinə düşməyən jurnalistlərin fəaliyyətinə məhdudiyyət qoyulacaq”**



**Elçin Mirzəbəyli:**
**“Media Reyestrinə daxil olmaq həm jurnalistlər, həm də media subyektləri üçün bir sıra istiqamətlərdə, xüsusilə də sosial və digər güzəştlərdən faydalanmaq baxımından daha geniş imkanlar açacaq”**

“Media haqqında” qanun və onun tələbindən irəli gələn Media Reyestri hüquqi platformadır, bütün tərəflərin hüquqlarının və öhdəliklərinin müəyyənləşdirildiyi, subyektiv mülahizə və qərarlara imkan verməyən hüquqi normalar məcmusudur. Bunun alternativi xaos, ozbaşınalıq, dərəbəylik, vətəndaşların, media subyektlərinin və jurnalistlərin hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına zəmina yarada biləcək hüquqi nihilizmdir. Hüquqi dövlətdə heç bir sahə, o cümlədən media sektoru hüquqi tənzimləmələrdən kənarda qala bilməz və qalmamalıdır da. Bu baxımdan, Mediya Reyestrinin aparılmasının qaydalarının müəyyənləşdirilməsinə və tətbiqinə bütün media subyektləri və jurnalistlər üçün bərabər imkanlar və rəqabət mühiti yaradan platforma kimi yanaşmaq lazımdır. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsi könüllülük prinsipi əsasında aparılacaq və həmçinin media subyektləri də onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqil olacaqlar. Yəni hansısa şəxsin adının Media Reyestrinə daxil edilməməsi onun peşə fəaliyyəti ilə məşğul olmasına heç bir maneə yaratmayacaq”.

Baş redaktor onu da qeyd etdi ki, Media Reyestrinə daxil olmaq həm jurnalistlər, həm də media subyektləri üçün bir sıra istiqamətlərdə, xüsusilə də sosial və digər güzəştlərdən faydalanmaq baxımından daha geniş imkanlar açacaq: “ Çünki Media Reyestrinə daxil olmaqla, media subyektləri müvafiq peşə standartlarına cavab verdiklərini, medianın klassik və modern institutlarının əks olunduğu bir müstəvidə çalışdıqlarını, yəni peşəkar fəaliyyətlərini ortaya qoyacaqlar. Bu isə bərabər və ədalətli rəqabət mühitinin açarıdır. Reyestr medianın inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslandırmasının formalaşdırılmasına imkan verəcək. Yəni media subyektləri öz inkişaflarını təmin etmək üçün əsaslandırılmış biznes layihələri ilə çıxış edəcək və bunun qarşılığında həm ölkənin qeyri-neft sektorunun, sahibkarlığın, həm də medianın inkişafı üçün nəzərdə tutulan güzəştlərdən faydalana biləcəklər. Həmçinin Media Reyestrində yer alan informasiyaların əlçatanlığı, digər mühüm elektron informasiya sistemlərinə inteqrasiyası bu sahədə, xüsusilə də peşə fəaliyyəti ilə bağlı şəffaflığın təmin olunmasına, neqativ halların qarşısının alınmasına, o cümlədən media subyektləri və jurnalistlərin hüquqlarının daha yüksək səviyyədə müdafiəsinin təmin edilməsinə imkan yaradacaq. Media Reyestri jurnalistika sahəsində peşəkar fəaliyyətin hüquqi nizama salınmasıdır və sözün bütün mənalarında, mediaya peşəkar faəliyyət istiqaməti kimi baxanlara, bütün hüquq və azadlıqları kompleks şəkildə dərk edənlərə, medianı öz həyatının ayrılmaz bir parçası hesab edənlərə, kəsəsi, medianın daimi sakinlərinə layiq olduqları imkanları yaradacaq”.

Qeyd edək ki, bu Fərman Azərbaycan mediasının tarixində yeni səhifənin açılması kimi xarakterizə edilə bilər.

Media Reyestrində media subyektləri, onların redaksiyaları və jurnalistlərə dair elektron hökumət portalında mövcud olan məlumatlar inteqrasiya, digər məlumatlar isə istifadəçi tərəfindən daxil edilməklə sistemləşdiriləcək. Bu, jurnalist fəaliyyəti ilə məşğul olan şəxslər haqqında məlumatların vahid bazada toplanması deməkdir.

Bununla belə, bu proses məcburi deyil. Media subyektləri mütləq şəkildə, jurnalistlər isə Media Reyestrinə könüllülük prinsipi əsasında daxil ediləcək. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vəsiqələr təqdim olunacaq. Reyestrə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqəsinin təqdim olunması media mühitinin sağlamlaşması baxımından çox müsbət və vacib addımdır. Bu, media mühitinin təsadüfi “jurnalistlərdən” təmizlənməsinə də yardım edəcək. Diqqət yetirməli məqamlardan biri də budur ki, mətbuat orqanları işçisi olan jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqil olacaq, media qurumları ənənəvi qaydada işçilərinə redaksiyanın vəsiqəsini verə biləcək.

Media Reyestrinin aparılması müəyyən məsələlərin həllini tapmasında mühüm rol oynayacaq. Media Reyestri media subyektlərinin və media sahəsində işləyən şəxslərin fəaliyyətinin, eyni zamanda, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasına şərait yaradacaq. Reyestr medianın inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslandırmasının formalaşdırılmasına imkan verəcək.

Digər mühüm amil isə mətbuat orqanlarının və jurnalistlərin hüquqları ilə bağlıdır. Media Reyestrinin aparılması media subyektlərinin və jurnalistlərin hüquqlarını daha yüksək səviyyədə müdafiəsini təmin edəcək. Reyestrə düşmüş media orqanı və jurnalist artıq hüquqlarının qorunması üçün mühüm istinad nöqtəsinə malik olacaq.

Media cameəsini maraqlandıran əsas məsələlərdən biri də güzəşt və imtiyazlardır. Uzun illərdir, mətbuat işçilərinə müxtəlif sahələr üzrə güzəşt və imtiyazların verilməsinin mümkünlüyü ətrafında təkliflər səslənir, müzakirələr aparılır. Lakin bu məsələdə ən ciddi problem kimin həqiqi jurnalist sayılması idi. Media Reyestri bu mübahisələrə də son qoymuş olacaq. Məhz Media Reyestrinə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər.

Media Reyestrinin aparılmasının keyfiyyətli xəbər istehsalının təmin edilməsi, ən əsas məsələlərdən olan müəlliflik hüquqlarının qorunması baxımından da vacib amildir. Eyni zamanda Media Reyestri jurnalistlərin akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsini də təmin edəcək.

Bütün sadalanan və sadalanmayan məqamları nəzərə aldıqda belə qənaətə gəlmək olur ki, Media Reyestri Azərbaycan mətbuatının inkişafı üçün yeni bir mərhələnin əsasını təşkil edəcək.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Köçərli Həsənov Masallıda vətəndaşları qəbul etdi

***Mərkəzi icra hakimiyyəti orqanlarının, digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənov 28 sentyabr 2022-ci il tarixində Masallı şəhərində Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov və Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Masallı şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Masallı və Yardımlı rayonlarından 46 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və tullantı sularının axıdılması xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

## Prokurorluq əməkdaşları uşaq evlərində

***Sentyabrın 26-da Baş Prokurorluğun əməkdaşları Azərbaycan prokurorluğunun yaranmasının 104 illiyi ərəfəsində ənənəvi olaraq Bakı şəhəri ərazisində yerləşən müxtəlif uşaq evlərini ziyarət ediblər.***

Bu barədə "Unikal"a qurumun Mətbuat Xidmətindən məlumat verilib.

Ziyarət çərçivəsində prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemləri ilə maraqlanıb, onlara hədiyyələr təqdim ediblər.

"Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur", - Mətbuat Xidmətindən bildirilib.

## Pensiya artımı bu şəxslərə aid edilməyəcək

***"Xüsusi şərtlərlə pensiyaya çıxanların həm müavinətləri, həm də onların hesablanma və artırılma qaydaları ayrı olduğu üçün artım onlara şamil edilməyəcək".***

Bu sözləri "ARB24"ə açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Komitə sədri əlavə edib ki, pensiya artımı həm də ailə başçısını itirməyə görə pensiya alanlara da aid olmayacaq.

# Daşınmaz əmlaka dair xidmətlərlə bağlı yeni ödənişlər tətbiq olunacaq

***Azərbaycanda daşınmaz əmlakla bağlı xidmətlərə görə yeni xidmət haqqları tutulacaq.***

"Unikal"ın xəbərinə görə, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna dəyişiklik layihəsində əksini tapıb.

Dəyişikliklə daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi, daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi, sxematik ünvan planlarının tərtibi, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsi, torpaq



kadastr məlumatları və çöl-ölçmə işlərinin nəticələri əsasında torpaq sahəsinə dair mütəxəssis rəyinin verilməsi ilə bağlı göstərilən xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə xidmət haqları ödəniləcək.

Qanun layihəsi aşağıdakı xidmətlərə görə xidmət haqlarının tutulmasının hüquqi əsaslarını müəyyən edir:

- daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması; daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi;
- daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi;
- sxematik ünvan planlarının tərtibi, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsi;
- torpaq kadastr məlumatları və çöl-ölçmə işlərinin nəticələri əsasında torpaq sahəsinə dair mütəxəssis rəyinin verilməsi.

# Dünyada həm də "infrastruktur müharibələri" başlasa... - Ekspertdən XƏBƏRDARLIQ

***"Artıq heç bir məsələdə "qırmızı xət" qalmayıb, hətta "soyuq müharibə" zamanı belə kritik enerji infrastrukturları, kommunikasiya xətləri toxunulmaz idi..."***

Bunu iqtisadçı-ekspert Natiq Cəfərli deyib.

Onun sözlərinə görə, hətta Rusiyanın Ukraynaya təcavücü və apardığı işğalçı müharibə zamanı belə hər iki tərəf Ukraynadan keçən kommunikasiya xətlərinə ziyan vuracaq addımlardan çəkinirdilər: "Amma Rusiya Zaporojye AES-i işğal edib atom təhdidi yaradan gündən bu "qırmızı xətlər" silinməyə başladı".

Ekspert deyib ki, iki gün öncə Baltik dənizində "Şimal Axını-1" və "Şimal Axını-2" boru kəmərlərinin partladılması dünyada yeni, çox təhlükəli, heç bir tapu tanımaz şərait yaradır. Partlaşın kimlər, hansı ölkə tərəfindən törədilməsindən asılı olmayaraq bu çox təhlükəli presedentdir: "Əgər dünyada indi həm də "infrastruktur müharibələri" başlasa, zatən xaotik durumda olan vəziyyət daha da mürəkkəbləşəcək, zatən kovidlə mübarizənin axmaqcasına aparılmasından başlayan iqtisadi böhran daha da dərinləşəcək".

N.Cəfərliyə görə, görünən odur ki, hər bir ölkə öz başının çarəsinə özü qalmalıdır - Azərbaycan öz həyati əhəmiyyətli infrastruktur və kommunikasiya xətlərinin daha da ciddi qorunması məsələsini həll etməli, bunun üçün Türkiyə, Britaniya və İsrail ilə (Türkiyə xətlərin davamı olan ölkə kimi, Britaniya bp şirkətinin neft-qaz layihələrinin əsas operatoru olduğu, İsrail isə öz neft ehtiyacının yarıdan çoxunun Azərbaycandan təmin etdiyi üçün) hava məkanımızın tamamən xarici müdaxilələrə bağlanması, yerüstü təhlükəsizlik tədbirlərinin artırılması (məsələn, boru xətləri boyu Türkiyə ilə birgə təhlükəsizlik nəzarətinin gücləndirilməsi, boru xətləri boyu birgə nəzarət məntəqələrinin yaradılması) ilə bağlı qərarlar alınmalıdır: "Nə qədər ki, Rusiya



Ermənistanda həlledici söz sahibidir, Ermənistan-Azərbaycan sərhədinə yaxın bölgələrdən keçən boru və kommunikasiya xətlərimizə həmişə təhlükə olacaq - 2020-ci ilin yayında Tovuz təxribatı bunun əyani sübutudur".

***Aytac Aslan***

# Qazilərdən rüşvət alan hərbi həkimlərin cəzası məlum oldu

***Silahlı Qüvvələrin Baş Klinik Hospitalının bölmə rəisi Vüsal Eyvazovun və hospitalın digər əməkdaşı Hüseyn Ağayevin cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb.***

Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən iclasda hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən şəxslərə münasibətdə Cinayət Məcəlləsinin 62 (sanksiya həddindən aşağı cəza təyin etmə) maddəsi tətbiq edilib.

Vüsal Eyvazov 2 il, Hüseyn Ağayev isə 1 il 6 ay azadlıqdan məhrum edilib.

Qeyd edək ki, ittiham olunan şəxslər Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunublar.

Faktla bağlı başlanılmış cinayət işi



üzrə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının bölmə rəisi Eyvazov Vüsal Qorxmaz oğlunun xidməti vəzifələrinin icrası zamanı həmin Hospitalın digər əməkdaşı Ağayev Hüseyn İlham oğlunun vasitəsilə çoxsaylı hərbi qulluqçuların hər birindən onlara dövlət tərəfindən birdəfəlik sosial sığorta müavinətinin ödənilməsi üçün Vətən müharibəsində aldıqları xəsarət dərəcələrinin təyin edilməsi müqabilində pul vəsaitlərini rüşvət qismində istəyərək almasına əsaslı şübhələr müəyyən edilib.

Keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində Vüsal Eyvazov və Hüseyn Ağayev cinayət başında yaxalanıblar. Vüsal Eyvazov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2 (vəzifəli şəxs tərəfindən təkrar rüşvət alma), Hüseyn Ağayev 32.5, 311.3.2 (təkrar rüşvət almada iştirakçılıq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. /apa

# ASC meliorativ tədbirləri davam etdirir

***170 km uzunluğunda kollektor-drenaj sistemləri lildən təmizlənib. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, meliorativ tədbirlərin vaxtında aparılması nəticəsində torpaqların münbitliyi artır.***

Artıq əvvəlki illərdə əkin aparılmayan sahələrdə belə müxtəlif növ kənd təsərrüfatı təyinatlı bitkilər əkilir. Uzun illər şoranlaşmaya məruz qalan torpaqlar kollektor-drenaj sistemlərinin mütəmadi təmizlənməsi ilə əkinə yararlı vəziyyətə gətirilir. Bütün bu işlər Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsinin texnikaları vasitəsi ilə həyata keçrilir. Plana uyğun olaraq idarə tərəfindən 3 ədəd borulu keçid təmir olunub, 3 ədədində isə əsaslı təmir işləri davam etdirilir. Hazırda vaxtilə tikilən və yararsız hala düşən borular sökülərək yeni borularla əvəzlənir.



Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi tərəfindən bu ilin əvvəlindən etibarən 170 km məsafədə kollektor-drenaj sistemi lildən təmizlənib. Bununla da həmin kollektorların keçdiyi ərazilər artıq münbit torpaqlara çevrilməkdədir. Hazırda kollektor-drenaj sistemlərinin təmizlənməsi sistemli şəkildə aparılır.

Qeyd edək ki, Mil-Qarabağ və Aşağı Şirvan kollektorlarının istismarı idarəsi respublikanın 6 rayonuna xidmət göstərməklə ümumi uzunluğu 5 min kilometrə yaxın kollektor-drenaj şəbəkəsinə və 173 min hektar meliorasiya olunmuş əkin sahəsinə xidmət edir. İdarənin xidməti sahələri Yevlax, Bərdə, Zərdab, Kürdəmir, Ağsu və Ağcabədi rayonlarının ərazilərində yerləşir.

Saatlıda 60000 hektara yaxın sahə suvarılıb. Dilqəm Şərifov bildirib ki, Saatlı rayonunda hər il olduğu kimi bu il də suvarma normalara uyğun olaraq aparılıb və artıq başa çatdırılıb. Saatlı Suvarma Sistemləri İdarəsi 60 min hektara yaxın suvarma şəbəkəsi ilə əhatə olunan sahəyə xidmət edir. İdarə sahələrin suvarılmasını ümumi uzunluğu 1400 km-dən artıq olan suvarma kanalları, 2000-dən çox sayı olan hidrotexniki qurğu, 61 ədəd nasos aqreqatı və digər köməkçi vasitələrlə təmin edir. Balansda olan suvarma kanallarında suyun axınının maneəsiz təmin olunması istiqamətində hazırda müxtəlif ərazilərdə lildən təmizlənmə işləri həyata keçirilir. Araz çayından ayrılan suvarma qollarının tez-tez lillənməsi kanalların mütəmadi təmizlənməsini vacib edir. Bununla yanaşı kollektor-drenaj şəbəkəsi də lildən təmizlənir, ərazidə olan torpaqların şoranlaşmasının qarşısı alınır.

Saatlı Suvarma Sistemləri İdarəsi tərəfindən ilin əvvəlindən bu vaxta qədər 22 ədəd hidrotexniki qurğu, 2 ədəd nasos stansiyası, 7 km nov kanal cari təmir edilib. Eyni zamanda 2022-ci ilin II rübündə ümümi uzunluğu 330 km olan suvarma kanallarında 891 min m?, uzunluğu 158 km olan kollektor-drenaj şəbəkəsində isə 544 min m? mexanizmlə lildən təmizlənmə işi yerinə yetirilib. Bundan başqa Araz çayında nasos stansiyaların ətrafında 255 min m? məcratəmizləmə işləri də başa çatdırılıb.

Qeyd edək ki, Saatlı rayonunda bu il 18515 hektar taxıl, 16930 hektar yem bitkiləri, 13000 hektar pambıq, 252 hektar qarğıdalı, 2650 hektarı bostan-tərəvəz və 66 hektarı silos qarğıdalı əkilib və suvarılması tam başa çatdırılıb.

Masallıda əkin sahələrinin suvarılması üçün 38 milyon kubmetr həcmində su sərf edilib. Dilqəm Şərifov bildirib ki, Masallıda suvarma mövsümü geridə qaldı. Suvarma suyunun ərazilərə maneəsiz verilməsi və izafi suları kənarlaşdırmaq üçün rayon ərazisində görülən işlər öz bəhrəsini verib. Masallı rayonunun 9892 hektar əkin sahəsinin suvarılmasını, əsasən Viləşçay su anbarının suyu təmin edir. Əkin sahələrinə verilən suyun vaxtı - vaxtında çatdırılması üçün qapalı şəbəkələrdən və açıq torpaq kanallardan istifadə olunur. Sağ sahil beton kanal vasitəsilə 4530 hektar əkin sahəsi qapalı şəbəkə vasitəsilə suvarma su ilə təmin olunur.

Bu il Viləşçay su anbarında 46 milyon kubametr həcmində su yığılıb və suyun bu günkü günə kimi 38 milyon kubmetri əhaliyə verilmişdir. Əkin sahələrinin vaxtı - vaxtında suvarılması nəticəsində fermerlər sahələrdən yüksək məhsuldarlıq əldə ediblər.

Əkin sahələrinin suvarılması ilə yanaşı Viləşçay su anbarı vasitəsilə Masallı şəhəri, Masallı rayonun kəndləri və Cəlilabad şəhəri içməli su ilə təmin edilir. Hazırda kanallarda suvarma suyunun verilməsi dayandırılıb. Növbəti mövsümə hazırlıq işləri görülür. Kanallardan lildən təmizlənmə işləri aparılır.

Qeyd edək ki, Viləşçay su anbarının faydalı həcminin artırılması məqsədilə 2 - ci növbəsinin tikilməsi nəzərdə tutulub. Cənab Prezidentin müvafiq sərəncamına əsasən layihə işləri aparılır. Su anbarında suyun həcmi 128 milyon kubmetr sututma qabiliyyətinə malik olacaq. Bununla da Masallı rayonunda ümumi 17000 hektara yaxın əkin sahəsi suvarma suyu ilə təmin oluna biləcək.

***Hüseyn İsgəndərov***



## Qaradağda "KamAZ" və "MAN" toqquşdu

***29 sentyabr 2022-ci il tarixində səhər saatlarında Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhərinin Qaradağ rayonu, Səngəçal qəsəbəsi ərazisində yol-nəqliyyat qəzasının baş verməsi və xilasedici köməyinə ehtiyac yaranması barədə məlumat daxil olub.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib.

Məlumat əsasında FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin Qaradağ rayonu üzrə xilasedicilər qrupu dərhal hadisə yerinə cəlb edilib.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən edilib ki, "KamAZ" və "MAN" markalı yük avtomobillərinin toqquşması ilə baş verən yol-qəza hadisəsi nəticəsində "KamAZ" markalı yük avtomobilinin sərnişini 1975-ci il təvəllüdlü Kadirov Zaur Şəmsəddin oğlu avtomobildə sıxılı vəziyyətdə qalaraq köməyə ehtiyacı yaranıb.

Xilasedicilər xüsusi xilasetmə vasitələrindən istifadə etməklə Z.Kadirovu deformasiyaya uğramış avtomobildən çıxararaq təcili tibbi yardım briqadasına təhvil veriblər.

Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

## 5 nəfər yol qəzalarının qurbanı oldu

***Ötən gün yol qəzalarında 5 nəfər ölüb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, sentyabrın 28-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb.

## Ucar sakini həmkəndlisini bıçaqladı

***Sentyabrın 28-də, saat 20 radələrində Ucar rayonu Küçəkənd kənd sakini Muxdər Rəsulovun qarının ön divarının dəlib keçmiş açıq yarası diaqnozu ilə Ucar Rayon Mərkəzi Xəstəxanasına gətirilməsi barədə Rayon Polis Şöbəsinə məlumat daxil olub.***

DİN-in mətbuat xidmətinin Şirvan regional qrupundan "Unikal"a verilən məlumata görə, daxil olmuş məlumatla əlaqədar polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində zərərçəkənə xəsarət yetirən onun həmkəndlisi Maarif Xəlilov saxlanılaraq Polis Şöbəsinə gətirilib.

O, dindirilmə zamanı M.Rəsulova aralarında yaranmış mübahisə zəminində xəsarət yetirdiyini bildirib.

Faktla bağlı Ucar RPŞ-nin İstintaq Bölməsində araşdırmalar aparılır.

## Bakıda yol polisini maşın vurdu

***Bakıda DYP əməkdaşını avtomobil vurub.***

"Unikal" xəbər verir ki, hadisə bu gün səhər saatlarında paytaxtın Neftçilər proskpektində qeydə alınıb.

Polis serjantı Ramin Ağamalıyev ərazidə xidmət apararkən hərəkətdə olan avtomobil onu vurub.

Yaralı dərhal Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin A.Heydərov adına Respublika Hospitalına yerləşdirilib, vəziyyəti normaldır.

# Danimarka kraliçası nəvələrini "kral" titulundan məhrum etdi



***Danimarka Kraliçası II Marqret 4 nəvəsini "kral" titullarından məhrum edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Kraliça 2023-cü il yanvarın 1-dən etibarən Şahzadə Yoahimin övladlarının titullardan yalnız Monpezatın "Qraf" və "qrafinyası" kimi istifadə edəcəyini bildirib.

Kraliçanın dörd nəvəsinin Tacın rəsmi üzvlüyünün tələb etdiyi xüsusi mülahizələr və vəzifələrlə məhdudlaşmadan "öz həyatlarını daha geniş miqyasda formalaşdırmaq üçün bir çərçivə yaratmaq" istədikləri qeyd edilib.

Bildirilibki, Şahzadə Nikolay, Şahzadə Feliks, Şahzadə Henrik və Şahzadə Afina Danimarka taxtına yüksəlmə zamanı öz yerlərini qoruyacaqlar.

Qeyd edək ki, İsveç kralı 16-cı Karl Qustaf da 2019-cu ildə nəvələrini titullarından məhrum etmişdi.

***G.Mecid***

# Hindistan Ermənistana 245 milyonluq hərbi yardım göndərir

***Hindistan Ermənistana 244,7 milyon dollar dəyərində silah-sursat göndərəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, sözügedən silah-sursat iki ölkə arasında sentyabrın əvvəlində imzalanan müqavilələr əsasında göndəriləcək.

Bildirilir ki, Hindistan Ermənistana yerli istehsalı olan "Pinaka" reaktiv yaylım atəşi sistemləri, eləcə də tank əleyhinə raketlər və silah-sursat partiyası verəcək.

# "ABŞ bizi nüvə güclərinin toqquşmasına sövq edir" - Anatoli Antonov

***ABŞ-ın hazırdakı vəziyyəti bizi nüvə güclərinin toqquşmasına sövq edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov Amerikanın "The National Interest" jurnalına müsahibəsinə deyib.

"Rusiyanın açıq-aşkar düşmən hərəkətlərinə və hücumlarına nə qədər dözəcəyi və cavab verməkdən çəkinəcəyi sınaqdan keçirilir. Əslində, Vaşinqton vəziyyəti gözlənilməz nəticələrlə dolu olan ən böyük nüvə dövlətləri arasında birbaşa qarşıdurmaya doğru sövq edir", - Antonov bildirib.

O, ABŞ rəsmilərinin vəziyyəti gərginləşdirməyə və Rusiyadan gələn "xəyali nüvə təhlükələri" ilə ictimaiyyəti qorxutmağa davam etdiyinə diqqət çəkib. Onun sözlərinə görə, bu cür ritorika Rusiya hakimiyyətinin bəyanatlarını təhrif edir.

"Ölkəmizin nüvə silahından istifadə edəcəyi şərtlərdə heç bir dəyişiklik olmadığını vurğulamaq istərdim. Bu baxımdan, biz 2014-cü il Hərbi Doktrina və 2020-ci il üçün Dövlət Nüvə Qarşısının Alınması Siyasəti Çərçivəsinə ciddi şəkildə riayət etməyə davam edirik. Moskva heç vaxt bu sənədlərin geniş şərhini qeyd etməyib ki, bunu ictimaiyyətdə tapmaq olar", - diplomat yekunlaşdırıb.

Ötən həftə ABŞ dövlət katibi Entoni Blinken demişdi ki, administrasiya Rusiyanın hipotetik nüvə silahından istifadə etməsi ilə bağlı plan hazırlayıb.

***Gülayə Mecid***

# Daha bir ölkə rus turistləri qəbul etməyəcək

***Finlandiya sentyabrın 30-dan etibarən rusiyalı turistlər üçün sərhədi bağlayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "Helsingin Sanomat" məlumat yayıb. Bildirilir ki, Finlandiya tərəfi rusiyalı turistlərə qoyulan məhdudiyyətlərin təfərrüatlarını və şərtlərini açıqlamayıb.

Bundan əvvəl Latviya, Litva, Polşa və Estoniya da sentyabrın 19-da saat 00.00-dan etibarən Rusiya vətəndaşlarının ölkəyə buraxılmasını dayandırıb. Bundan sonra Baltikyanı ölkələrə yalnız üç dövlətdən birinin yaşayış icazəsi olanlar, vətəndaşlığı olanların ailə üzvləri və başqaları daxil ola bilər.

# Paşinyan Rusiyadan narazılıq etdi: "Yüz milyonlar ödədik, amma bizə silah vermirlər"

***Baş nazir Nikol Paşinyan hökumətin parlamentlə birgə keçirdiyi bugünkü iclasında Ermənistan-Azərbaycan sərhəddində yaranmış vəziyyətdən və dünənki insidentdən bəhs edib.***



"Unikal" Ermənistan KİV-lərinə istinadən xəbər verir ki, baş nazir ölkəsinin silah-sursat alması məsələsində ciddi maneələrlə üzləşdiyini bildirib.

Paşinyan əsas narazılığını müttəfiq dövlətlərə yönəldib. Onun sözlərinə görə, bəzən elə hallar olub ki, Ermənistan silah almaq üçün yüz milyonlarla dollar ödəyib, lakin müttəfiq ölkələr tədarük öhdəliklərini yerinə yetirməyib.

"Bunlar ağrılı reallıqlardır və biz vəziyyəti dərindən təhlil etməliyik", - Paşinyan vurğulayıb.

O qeyd edib ki, bu məsələdə Azərbaycanın Ermənistanın müttəfiqlərilə qurduğu münasibətlər xüsus rol oynayıb. "Bu mənada onların uğurları var: imkan daxilində Ermənistana silah-sursat verilməsinin qarşısını almağa çalışırlar".

Paşinyan müttəfiq dövlətlərdən narazılıq edərkən ad çəkməsə də, Ermənistan KİV-ləri ehtimal olaraq baş nazirin Rusiyanı nəzərdə tutduğunu vurğulayıb.

# "Bu şəxslərin xaricə getməsi qadağandır" - Volodin

***"Hərbi qeydiyyatda olan vətəndaşların hərbi komissarlıqların icazəsi olmadan yaşayış yerini, o cümlədən xaricə çıxması qadağandır".***



"Unikal" xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin öz "Telegram" kanalında məlumat verib.

""Rusiya Federasiyasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" 31 saylı Federal Qanuna əsasən, səfərbərlik elan edildiyi andan hərbi qeydiyyatda olan vətəndaşların yaşayış yerini icazəsiz tərk etmək qadağandır", - deyə spiker yazıb.

Volodin həmçinin bildirib ki, Rusiya sərhədində ölkəni tərk edənlərin siyahıları hazırlanır. O, Rusiyanı tərk edənlərin sərhəddə qoyduğu avtomobillərin Ukraynada xüsusi hərbi əməliyyat iştirakçılarının ailələrinə verilməsinin müzakirəsini təklif edib.

***Gülayə Mecid***

# Zaxarova bu dəfə də NATO və ABŞ kəşfiyyatını ittiham etdi



***"Şimal axını" kəmərlərinin zədələnməsi ilə nəticələnən qəzalar və bu qəzalardan sonra baş verən sızmalar ABŞ kəşfiyyatın nəzarət etdiyi ərazilərdədir.***

Bakıvaxtı.az xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova "Solovğev Live" YouTube şousunun efirində deyib. Qəzaların baş verdiyi ərazilər haqda danışan Zaxarova bildirib: "Hadisənin baş verdiyi ərazilərə gəlincə isə, bu İsveç və Danimarka ticarət-iqtisadi zonalarıdır. Bu həmin ərazilərdir ki, NATO-ya daxildir və ABŞ silahlı qüvvələri və ABŞ xüsusi xidmət orqanları tərəfindən qorunur". Zaxarova onu da əlavə edib ki, qəza baş vermiş ərazilərə tamamilə ABŞ xüsusi xidmət orqanları nəzarət edir.

# "Rusiya-Ukrayna müharibəsi Yeni ilə qədər bitəcək" - Türkiyəli analitik

***"Yeni il qabağı Rusiya prezidenti Vladimir Putin Ukraynadakı hərbi əməliyyatların başa çatdığını elan edə bilər".***

"Unikal" xəbər verir ki, bunu türkiyəli analitik Erkan Altparmak yerli KİV-lərdən birinə müsahibəsində deyib. Onun sözlərinə görə, Qərb ölkələri Yeni ildən əvvəl Moskva və Kiyevi danışıqlara başlamağa sövq edə bilərlər: "Hesab edirəm ki, vəziyyətin normallaşması çox tez, yaxın iki-üç ay ərzində başlaya bilər. Hazırda Qərbin və Kiyevin hərəkətləri çox önəmlidir. İstər sülh, istərsə də qeyri-sabitlik, bu, həmişə diqqətdə saxlanılmalıdır", - Erkan Altparmak bildirib.



***Gülayə***

# A seriyasında ilk qadın hakim



***İtyaliya A seriyasının 8-ci turunda ”Sassuolo” - ”Salernitana” oyununu qadın hakim Mariya Sole Ferrieri Kaputi idarə edəcək.***

”Unikal” xəbər verir ki, bu barədə Hakim Təyinatı Şurası məlumat yayıb.

Daha əvvəl ölkənin əsas çempionatının matçlarına qadın hakim təyinatı qeydə alınmayıb. Beləliklə, Mariya A seriyası matçını idarə edən ilk qadın hakim olacaq.

Qeyd edək ki, oktyabrın 2-sində keçiriləcək ”Sassuolo” - ”Salernitana” qarşılaşması Bakı vaxtı ilə saat 17:00-da başlayacaq.

# Abdullah Zubir: “Bu, “Qarabağ”da ən unudulmaz oyunumdur”

***“Mövsüm ərzində bütün oyunlara ciddi hazırlaşır, çoxlu məşq edirik”.***

Apasport.az saytının məlumatına görə, bunu “Qarabağ”ın yarımmüdafiəçisi Abdullah Zubir deyib.

Fransalı futbolçu “CBC Sport” telekanalına açıqlamasında Premyer Liqanın VIII turunda “Neftçi” (1 oktyabr), Avropa Liqasının qrup mərhələsində isə “Olimpiakos”la (6 oktyabr) matçlara hazırlaşdıqlarını söyləyib: “Əvvəlcə “Neftçi”, ardından isə “Olimpiakos”la oyunumuz var. Bu matçlarda yaxşı formada olmağa çalışacağıq”.

Zubir Avropa Liqasının II turunda “Nant” üzərində qazanılan 3:0 hesablı qələbənin onun üçün xüsusi olduğunu söyləyib. Çünki fransalı həmin matçda həmyerlilərinə qol vurub: “Mən fransalıyam, karyeramın böyük hissəsini orada keçirmişəm. Gəldiyin ölkənin komandasına qol vurmaq hər zaman özəldir. Bu möhtəşəm hissdir”.

“Qarabağ”ın aparıcı oyunçusu Ağdam klubunun heyətində müsbət və mənfi mənada ən çox yaddaşında qalan görüşləri də açıqlayıb: “Qarabağ”da ən unudulmaz oyunum kimi ötən mövsüm Konfrans Liqasının qrupunda “Kayrat”la görüşü qeyd edərdim. Məncə, möhtəşəm matç oldu. Çünki komanda tarixində ilk dəfə qrupdan çıxdı. Hava olduqca soyuq idi. Çətinliklə 3 xal qazandıq və pley-off mərhələsinə vəsiqəni təmin etdik. Ən çox məyusluğu isə Plzen “Viktoriya”sı ilə görüşdə yaşadım. Çempionlar Liqasının qrupuna düşməyə çox



yaxın idik. Amma qismət olmadı”.

31 yaşlı hücumameyilli oyunçu Azərbaycana gəlişini də xatırlayıb. O, “Qarabağ”a keçməzdən əvvəl Azərbaycan futbolu barədə məlumatsız olduğunu etiraf edib: “Bura gəlməzdən əvvəl Azərbaycan futbolu haqda məlumatım yox idi. Burada çıxış edən bir tanışım var idi, mənə gəlməyi tövsiyə etdi. Azərbaycanın, Bakının möhtəşəmliyindən bəhs etdi və mütləq bura gəlməli olduğumu dedi. Mən də çox düşünmədim, təklifi qəbul edərək “Qarabağ”a gəldim”.

Qeyd edək ki, Abdullah Zubir 2018-ci ildən “Qarabağ”ın formasını geyinir.

# “Favorit “Qarabağ”dır, amma “Neftçi”nin qalib gəlməsini istərdim”

***Misli Premyer Liqasının 8-ci turunda “Qarabağ” “Neftçi”ni qəbul edəcək. Oyun oktyabrın 1-i ”Azersun Arena”da keçiriləcək və saat 18:00-da başlanacaq. Mövsümün ilk Azərbaycan derbisi ilə bağlı “Neftçi”nin sabiq futbolçusu Yunis Hüseynovun fikirlərini öyrəndik.***

O, Qol.az-a açıqlamasında “Qarabağ”ın favorit olduğunu, ancaq “Neftçi”nin qalib gəlməsini istədiyini bildirdi:

“Hər iki komandaya uğurlar arzu edirəm. Hazırda “Qarabağ” yüksəlişdədir. Avroliqada və çempionatda yaxşı oyunlar göstərir. Bir nüans var ki, “Qarabağ”ın 9 futbolçusu milli komandalara getmişdi. Buna görə bir balaca yorğunluq ola bilər. Amma “Qarabağ”ın heyəti həddindən artıq güclüdür. Builki “Qarabağ” lap güclüdür.

“Neftçi”də isə stabillik olmasa da, fərdi ustalığı güclü olan futbolçuların sayəsində komanda qalib gələ bilir. Kollektiv oyunda isə irəliləyiş görmürəm. Mən istəyərəm ki, “Neftçi”



qalib gəlsin. Ömrümün yarısı “Neftçi”də keçib. Ona görə də bu komandanı dəstəkləyirəm. Mövsümdə ilk derbi oyunudur, yəqin ki, yaxşı matç izləyəcəyik. “Neftçi”nin əsas gücü “Qarabağ”la oyunda görünəcək. Favorit kimi “Qarabağ”ı görürəm”.

Y.Hüseynov “Qarabağ”ın oktyabr ayında 8 oyun keçirəcəyinin də komandaya təsir etməyəcəyini bildirib: “Dəfələrlə olub ki, “Qarabağ”ın avrokuboklarda oynayan futbolçuları meydana çıxmasa da, komanda qalib gəlib, yenə də eyni oyunu nümayiş etdiriblər. Yəni aparıcı futbolçuların yeri görünməyib. Düzdür, sıx qrafikə görə “Qarabağ”a çətinlik çəkəcək, amma məncə, onun da öhdəsindən gələcəklər”.



# Anri: "VAR qolun bütün sevincini öldürür"

***Fransa millisinin sabiq oyunçusu Tyerri Anri VAR-ın futbolun inkişafına mənfi təsir göstərdiyi barədə fikirlərini bölüşüb.***

O, ”L’Equipe” nəşrinə müsahibəsində deyib ki, bu sistemin mövcudluğu oyundan zövq almağı çətinləşdirir: “Qol vurdun və bunu qeyd edib-etməyəcəyini belə bilmirsən. Xoşbəxtlikdən tullanmaq olar? Sevinmək olar? Yoxsa bunu qeyd etməyə dəyməz? VAR qolun bütün sevincini öldürür”.

# UEFA-dan “Olimpiakos” - “Qarabağ” oyunu ilə bağlı cəza qərarı

***Avropa Liqasının qrup mərhələsində “Qarabağ”ın rəqibi olan “Olimpiakos” UEFA tərəfindən cəzalandırılıb.***



Buna səbəb Yunanıstan klubunun azarkeşlərinin 2-ci turda “Frayburq”la ev oyununda pirotexniki əşyalardan istifadə etməsidir.

Komandanın növbəti turda “Qarabağ”la qarşılaşmada azarkeş məhdudiyyəti olacaq. Stadionun şimal tribunası qismən bağlanacaq. Həmçinin, Pirey təmsilçisi 50 min avro məbləğində cərimələnib

Qeyd edək ki, “Olimpiakos” - “Qarabağ” oyunu oktyabrın 6-da keçiriləcək.

# "Fənərbaxça"dan ayrıldı, “Əl-Cəzirə”yə keçdi

***Ötən gün “Fənərbaxça”dan ayrılan Filip Novakın yeni komandası rəsmiləşib.***




Çexiyalı müdafiəçi Birləşmiş Ərəb Əmirliklərinin “Əl-Cəzirə” klubu ilə müqavilə bağlayıb. Lakin tərəflər arasındakı sözləşmənin müddəti və digər detalları açıqlanmayıb.

Qeyd edək ki, Novak 2020-ci ilin avqustundan “Fənərbaxça”da çıxış edirdi. O, İstanbul klubunda 51 oyuna çıxıb, 4 qol və 3 məhsuldar ötürmə ilə yadda qalıb.